# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 432 Oktyabr 2023



AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org



# 2003-2023





















# İÇİNDƏKİLƏR

Prezident İlham Əliyevin çıxışı ........ 6
Xəzər Universitetində Beynəlxalq konfrans: "Uzun Həsən Ağqoyunlu və Onun Dövrü: Siyasi, Sosial-İqtisadi və Mədəni Məsələlər" ........ 10
Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans ........ 14
Xəzər Universitetinin Kamera orkestri "Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı"nda ........ 18
*Moussa Baccus*."My Karabakh or the Karabakh knot" ........ 20
"Dünya" xəbərləri ........ 22
Xəzər Universitetində Avropa Dilləri Günü ........ 24
İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi "Göyçay Ensiklopediyası"nda ........ 26
Yeni əcnəbi tələbələr üçün oriyentasiya günü ........ 28
"Xəzər"in əməkdaşları ANGC-nin 30 illiyi tədbirində ........ 30
"Xəzər"in məzunu "GP Cotton Holdings" MMC-nin baş icraçı direktoru təyin olunub ........ 31
"Prodüserlərin inkişaf təlimi" və "Animatorların inkişaf proqramı" adlı təlimlərin infosessiyaları ........ 33
Səudiyyə Ərəbistanı Krallığının səfiri ilə görüş ........ 35
"Türk dövlətləri və mədəniyyətləri tarixi" kitabı çap olunub ........ 36
"Xəzər"in tələbəsi Şimali Kipr Türk Respublikasının Prezidentinə hədiyyə təqdim edib ........ 37
Xəzər Universitetinin əməkdaşları Vilnüs Gediminas Texniki Universitetində ........ 40
Don Dövlət Texniki Universiteti "Xəzər"də ........ 41
DIRNA adlı Erasmus+ layihəsinin ilk idarəedici görüşü ........ 42
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 44
*Maqali Todua*. Nizami Gəncəli - "Leyli və Məcnun" ........ 46
"Xəzər"in xarici nəşrləri ........ 49
Xi`an Texnologiya Universitetinin elmi işçisi Xəzər Universitetinin Nanotexnologiya laboratoriyasında ........ 50
Çin ictimai Elmlər Akademiyası institutlarının əməkdaşları ilə görüş ........ 52
*Mustafa Aydın*. Armenian Question and its Evaluation in the Termsof Regional Security ........ 54
Ankara Sosial Elmlər Universitetinin nümayəndələri ilə görüş ........ 62
"Qanun" nəşriyyatının direktoru ilə görüş ........ 65
V Məmməd Araz Poeziya gününə həsr olunmuş tədbir ........ 66
Nizami Kino Mərkəzində Anım mərasimi ........ 69
Nobel mükafatı laureatları - 2023 ........ 70
SOCAR və Xəzər Universiteti arasında əməkdaşlıq sazişi imzalanıb ........ 76

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor**:
Hamlet İsaxanlı

**Baş redaktor müavini**:
Əlirza Balayev

**Foto**:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Ilham Aliyev`s Speech in Khankendi while Raising the Azerbaijani Flag (*in Azerbaijani*) .. 6
International Conference at Khazar University: "Uzun Hasan Aqqoyunlu and His Period: the Political, Socio-Economic and Cultural Problems" ....10
Conference Dedicated to the 100th Anniversary of the Republic of Türkiye ....14
Khazar University Chamber Orchestra at "Uzeyir Hajibeyli XV International Music Festival" ....18
Moussa Baccus."My Karabakh or the Karabakh knot" ....20
"Dunya" News ....22
European Languages Day at Khazar University ....24
Senior lecturer of English Language and Literature Department in "Goychay Encyclopedia" ....26
Orientation Day for New International Students ....28
Khazar University Staff at ASPG'S 30th Anniversary Event ....30
Khazar University Graduate Appointed Chief Executive Officer of "GP Cotton Holdings" LLC ....31
"Development of Producers Training" and "Development of Animators Program" Trainings Info Sessions Organized ....33
Meeting with Ambassador of the Kingdom of Saudi Arabia ....35
The book "History of Turkish States and Cultures" Published ....36
Khazar University Student Presented a gift to the Turkish Republic of Northern Cyprus President ....37
Khazar University Staff Members at Vilnius Gediminas Technical University ....40
Don State Technical University at Khazar University ....41
The first management meeting of the Erasmus+ project DIRNA ....42
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*) ....44
*Maqali Todua*. Nizami Gancali "Leili and Majnun" Maqali Todua ....46
"Khazar"s foreign publications ....49
Researcher of Xi'an University of Technology visits Nanotechnology Laboratory of Khazar University ....50
Meeting with the Staff of Institutes of the Chinese Academy of Social Sciences ....52
*Mustafa Aydın*. Armenian Question and its Evaluation in the Terms of Regional Security .54
Meeting Between Khazar University and the Rector of Turkish Social Sciences University of Ankara ....62
Meeting with "Qanun" Publishing House Director ....65
Event Dedicated to V Mammad Araz Poetry Day ....66
Commemoration Ceremony Held at Nizami Cinema Center ....69
Nobel Prize Laureates - 2023 (*in Azerbaijani*) ....70
SOCAR and Khazar University Sign Cooperation Agreement ....76

It has been published since January 1995

**Founder**:
Khazar University

**Editor-in-chief**:
Hamlet Isakhanli

**Associate editor**:
Alirza Balayev

**Photo**:
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib.*

# PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz həmvətənlər!

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək, prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün

güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı – bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə – hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il "Heydər Əliyev İli"dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd

edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə, – artıq sağlamlığı o qədər də yerində deyildi, – Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək, öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu Prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal

nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbrlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik.

Bax, burada oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



# XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ KONFRANS: "UZUN HƏSƏN AĞQOYUNLU VƏ ONUN DÖVRÜ: SİYASİ, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ MƏSƏLƏLƏR"

# INTERNATIONAL CONFERENCE AT KHAZAR UNIVERSITY: "UZUN HASAN AQQOYUNLU AND HIS PERIOD: THE POLITICAL, SOCIO-ECONOMIC AND CULTURAL PROBLEMS"

Oktyabrın 25-də Xəzər Universitetinin Mərmər salonunda Beynəlxalq Türk Akademiyası (Qazaxıstan) və Xəzər Universitetinin təşkilatçılığı ilə "Uzun Həsən Ağqoyunlu və Onun Dövrü: Siyasi, Sosial-İqtisadi və Mədəni Məsələlər" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda Xəzər Universitetinin rəhbərliyi, fakültə dekanları, departament müdirləri, əməkdaşlar və tələbələr, Beynəlxalq Türk Akademiyasının rəhbərliyi, Türkiyə, Qazaxıstan və Monqolustanın, AMEA institutları və ölkə universitetlərinin alim və mütəxəssisləri iştirak edirdilər.

On October 25, an international conference on "Uzun Hasan Aqqoyunlu and his period: the political, socio-economic and cultural problems" was held in the Marble Hall of Khazar University, organized by the International Turkish Academy (Kazakhstan) and Khazar University. The conference was attended by the administration of Khazar University, deans of faculties, heads of departments, employees and students, the administration of the International Turkish Academy, scientists and specialists from Türkiye, Kazakhstan and Mongolia, Institutes of ANAS




*Hamlet İsaxanlı*



Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı. Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər - universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) iştirakçıları kiçik konser proqramı ilə salamladı.

Sonra konfransın açılış mərasimi oldu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Beynəlxalq Türk Akademiyasının prezidenti Akad. Şahin Mustafayev açılış nitqi söylədilər.

Daha sonra konfransın plenar işlası öz



*Şahin Fazil*

işinə başladı. Prof. Şahin Fazil (AMEA Tarix İnstitutu) "Uzun Həsənin təşkil etdiyi Ağqoyunlu ordusunun izdihamlı rəsmi keçidinə baxış mütəfəkkir alim Cəlaləddin Məhəmməd Dəvaninin qələmi ilə (1476)", Prof. Dr. Danuugiin Ankhbayar (Türkologiya departamenti, Monqolustan Dövlət Universiteti və Katib Çelebi Universiteti, Monqolustan) "Elxanlı dövlət ənənəsindən Qaraqoyunlu üzərinə bəzi yansımalar: moğol tarixçiliyi üzərindən örnəklər", Prof. Dr. Uli Schamiloglu (Qazax Dili və Türk Araşdırmaları departamenti, Nazarbayev Universiteti, Qazaxıstan) "XIV -XV əsrlərdə Türk Dünyasında İqlim, Xəstəlik və Çarpışmalar", Prof. Dr. Feridun Mustafa Emecen (Ədəbiyyat fakültəsi, İstanbul 29 Mayıs Universiteti, Türkiyə) "Əmir Teymura özənmək: Osmanlı qaynaqlarından Uzun Həsən haqqında

(Ardı səh.12-də)



*Şahin Mustafayev*

and universities of the country.

The conference started with the performance of the National Anthem of the Republic of Azerbaijan. Khazar University Chamber Orchestra (artistic director - head of the University's Department of Music and Arts, honored teacher, pianist Zulfiyya Sadigova) welcomed the participants with a small concert



*Danuugiin Ankhbayar*

program.

Then there was the opening ceremony of the conference. Prof. Acad.Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees and Acad. Shahin Mustafayev, president of the International Turkish Academy gave an opening speech.

Then the plenary session of the conference

(To be continued page 12)



*Uli Schamiloğlu*

təəssüratlar" və Prof. Zabil Bayramlı (Tarix fakültəsi, Bakı Dövlət Universiteti) "Ağqoyunlu-Səfəvi ortaq dövlətçilik gələnəyinin bir sıra məsələlərinə ümumi bir baxış" mövzularında məruzə etdilər.

Plenar iclasın sonunda Şahin Mustafayev Hamlet İsaxanlıya türk tarixi və mədəniyyətinə aid kitablar təqdim etdi.

Həmin gün konfrans öz işini dörd bölmədə davam etdirdi, alim və mütəxəssislərin iyirmidən



*Zabil Bayramlı*

artıq məruzəsi dinlənildi. Bununla da konfrans işini başa çatdırdı.

Konfransa Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Nurlan Nəsirov moderatorluq edirdi.

Oktyabrın 26-da konfrans iştirakçıları Şəhidlər xiyabanında, Heydər Əliyev Mərkəzində və İçərişəhərdə oldular.

started its work. Then, reports were made on the following topics: "The crowded parade of the Aqqoyunlu army, organised by Uzun Hasan, in the writings of the philosopher-scholar Jalaluddin Muhammad Davani (1476)" by Prof. Şahin Fazil (Institute of History of ANAS); "Some reflections on Karakoyunlu from the Ilkhanid state tradition: examples from Mongolian historiography" by Prof. Dr. Danuugiin Ankhbayar (Turkology Department, Mongolian State University and Katib Chelebi University,Mongolia); " Climate , Disease, and Upheaval in the Turkic World in the 14th-15th Centuries" by Prof. Dr. Uli Schamiloglu (Department of Kazakh Language and Turkish Studies.



*Feridun Mustafa Emecen*

Nazarbayev University, Kazakhistan); "Emulating Emir Timur: Impressions of Uzun Hasan from Ottoman Sources" by Prof. Dr. Feridun Mustafa Emecen (Faculty of Literature of Istanbul 29 Mayıs University, Türkiye); "A general overview of some issues of the Akkoyunlu-Safavid common statehood tradition" by Prof. Dr. Zabil Bayramli (History Faculty, Baku State University, Azerbaijan).

On the first day, the conference continued

its work in four sections, more than twenty reports of scientists and specialists were heard.

The conference was moderated by Nurlan Nasirov, a lecturer of the Department of History and Archeology of Khazar University.

On October 26, the conference participants visited Alley of Martyrs, Heydar Aliyev Center and Icherisheher.






# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANS

# CONFERENCE DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE REPUBLIC OF TÜRKIYE





*Cahit Bağcı*

Oktyabrın 27-də Türkiyənin TRT kanalı və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə universitetin Mərmər salonunda Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "100 ildə Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinə tarixi baxış" adlı konfrans keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi, əməkdaşlar və tələbələr, ölkənin tarixçi alim və mütəxəssisləri, Tükiyənin Azərbaycandakı səfirliyinin rəhbərliyi, TRT əməkdaşları iştirak edirdilər.

Konfrans Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət himnlərinin ifası ilə başlandı. Sonra iştirakçılara universitetin vokal müəllimi müğənni Məhsəti Cabbarova və aşıq musiqisi müəllimi aşıq Ramin Karayevin iştirakı ilə kiçik konsert proqramı təqdim olundu.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dos. Dr. Cahit Bağcı geniş çıxış edərək, Türkiyə-Azərbaycan qardaşlığının hər bir dövrdə tarixi şəraitə uyğun mövcud olduğunu, nəhayət bir millət timsalında bərqərar olduğunu söylədi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxışında bu qardaşlığın yüz ildən əvvəlki dövrlərdə də sar-

On October 27, a conference dedicated to the 100th anniversary of the Republic of Türkiye "Historical review of Azerbaijan-Türkiye brotherly relations in 100 years" organized jointly by Türkiye's TRT channel and Khazar University, was held in the Marble Hall of the University. The event was attended by Khazar University administration, staff and students, historians and experts of the field, the administration of the Turkish Embassy in Azerbaijan, TRT employees.

The conference began with the performance of the national anthems of the Republic of Azerbaijan and the Republic of Türkiye. Then a small concert program was presented to the participants with the participation of singer Mahsati Jabbarova, vocal teacher of the University and ashig music teacher, ashig Ramin Karayev.

The Extraordinary and Plenipotentiary Ambassador of the Republic of Türkiye to Azerbaijan, Assoc. Prof. Cahit Bagci, delivered a speech and said that the Turkish-Azerbaijani brotherhood existed in every period in accordance with historical conditions, and finally it was established in the form of one nation. Acad. Prof. Hamlet Isakhanli, the founder of Khazar University and

sılmazlığından danışdı və çıxışını bu sözlərlə bitirdi: dünya xalqları arasında ikinci belə bir qardaşlıq nümunəsi olmamışdır və yoxdur."

Tarix və arxeologiya departamentinin koordinatoru Dr. Söhrab Mustafayevin aparıcılığı ilə keçən birinci hissədən sonra tədbir departamentin müdiri Dr.Telman Nüsrətoğlunun moderatorluğu ilə davam etdi. AZTV-nin "Əsas məsələ" proqramının aparıcılarından biri Elnar Məmmədli, Bakı Dövlət Universitetinin professoru Nəsiman Yaqublu, Azərbaycan Türk Ocağının başqanı Akif Aşırlı və Tarix və arxeologiya departamentinin koordinatoru Dr. Söhrab Mustafayevin konfrans mövzusuna aid məruzələri dinlənildi.

Müzakirələr aparılması və sualların cavablandırılması ilə konfrans başa çatdı.



Hamlet İsaxanlı

chairman of its Board of Directors and Trustees, spoke about the steadfastness of this fraternity over a hundred years ago and concluded his speech with the words: there has never been a second such fraternity between nations."

After the first part, which was hosted by Dr. Sohrab Mustafayev, coordinator of the Department of History and Archeology, the event continued moderated by Dr. Telman Nusratoghlu, head of the Department. Elnar Mammadli, one of the hosts of the "Main Topic" program of AZTV, Nasiman Yagublu, professor of Baku State University, Akif Ashirli, head of the Azerbaijani Turkish Hearth, and Dr. Sohrab Mustafayev, coordinator of the Department of History and Archeology, delivered speeches on the conference

The conference ended with discussions and answers to questions.



*Nəsiman Yaqublu, Elnar Məmmədli, Telman Nüsrətoğlu, Söhrab Mustafayev, Akif Aşırlı*

## MONPELYE UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

## A SEMINAR BY PHD STUDENT OF UNIVERSITY OF MONTPELLIER

Türkan Səmədova "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Fransanın Monpelye Universitetində "İmmunogenetika" ixtisası üzrə doktorantura təhsili alır.

Doktorant sentyabrın 21-də Xəzər Universitetində "Primatlarda İmmunoqlobulin (IG) lokuslarının genomik tədqiqi" adlı seminarda çıxış etdi. Seminarda Həyat Elmləri departamentinin müəllim heyəti ilə yanaşı, biologiya müəllimliyi, kimya və biologiya müəlllimliyi ixtisasları üzrə təhsil alan II, III və IV kurs tələbləri də iştirak etdi. Seminarda immunoqlobulinlərin sintezi, genlərin prototipləri, məlumat bazalarında mövcud referenslər əsasında genlərin axtarışı və müqayisəli təhlili haqqında ətraflı təqdimat olundu. Təqdimatdan sonra Türkan Səmədova iştirakçıların suallarını cavablandırdı və mövzuya dair maraqlı müzakirələr aparıldı.

Turkan Samadova is pursuing her PhD at University of Montpellier, France in "Immunogenetics" under the tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the program "Doctoral Education Abroad to Increase the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023.

On September 21, the doctoral student held a seminar entitled "Genomic study of immunoglobulin (IG) loci in primates" at Khazar University. Along with the teaching staff of the Department of Life Sciences, II, III and IV year students majoring in biology teaching, chemistry and biology teaching took part in the seminar. At the seminar, a detailed presentation was made on the synthesis of immunoglobulins, prototypes of genes, search and comparative analysis of genes based on existing references in databases. After the presentation, Turkan Samadova answered the participants' questions and interesting discussions were held on the topic.

## TƏLİM: "CV NECƏ YAZILMALIDIR?"

## TRAINING ON: "HOW TO WRITE A CV?"





*Səbinə Allahverənova*

Sentyabrın 21-də Xəzər Universitetinin Karyera Mərkəzi IV kurs tələbələri ilə "CV necə yazılmalıdır?" adlı təlim keçirdi.

Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova tərəfindən əvvəlcə tələbələrə CV-nin necə yazılması ilə bağlı əsas məqamlar izah olundu. Sonra CV-lərin dəyərləndirilməsi prosesinə keçildi. Sonda isə tələbələrin CV ilə bağlı sualları cavablandırılaraq, tövsiyələr verildi.

On September 21, the Career Center of Khazar University held a training session with IV year students. on "How to write a CV?"

Sabina Allahveranova, the manager of the Career Center, first explained the main points of how to write a CV to the students. Then the process of evaluation of CVs was started. In the end, students' questions about CV were answered and recommendations were given.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTU VƏ SUKANAL ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTU İLƏ ƏMƏKDAŞLIĞI DAVAM EDİR

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT CONTINUES TO COOPERATE WITH INSTITUTE OF SOIL SCIENCE AND AGROCHEMISTRY AND "SUKANAL" SCIENTIFIC-RESEARCH AND DESIGN INSTITUTE

İngilis dili və ədəbiyyatı departamentinin həyata keçirdiyi ümumi ingilis dili proqramı layihəsinə əsasən 2023-cü il sentyabrın 22-də Torpaqşünaslıq və Aqrokimya İnstitutu və Sukanal Elmi-Tədqiqat və Layihə İnstitutunun əməkdaşları üçün yekun dil səviyyə imtahanı təşkil edilmiş və imtahanı müvəffəqiyyətlə vermiş işrirakçılara sertifikat təqdim olunmuşdur.

Tədbirdə Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Əlövsət Quliyev və Sukanal Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru Vüqar Mirzəyev iştirak etdilər. Onlar Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova və universitetin layihə üzrə ingilis dili müəllimi Rəhimə Xəlilliyə layihənin həyata keçirilməsi ilə bağlı təşəkkürlərini bildirdilər.

Sonra layihənin davam etdirilməsi ilə bağlı müzakirələr aparıldı. Qeyd edək ki, hər iki institutun əməkdaşları "başlanğıc", "ilkin orta", və "orta" dil səviyyə qruplarını bitirmiş və müvafiq səviyyələrə uyğun sertifikatlar almışlar. Tezliklə layihəyə davam edərək, növbəti dil səviyyə qrupları təşkil olunacaq, dərs proqramına başlanılacaq.

In regard to the general English Program Project implemented by the Department of English Language and Literature, on September 22, 2023, the final language level exam was organized for the employees of the Institute of Soil Science and AgroChemistry and "Sukanal" Scientific-Research and Design Institute and certificates were presented to the participants who successfully passed the exam.

Director of the Institute of Soil Science and AgroChemistry Alovsat Guliyev and director of the "Sukanal" Scientific-Research and Design Institute Vugar Mirzayev attended the event. They thanked Milana Abbasova, head of the Department of English Language and Literature at Khazar University, and Rahima Khalilli, an English instructor appointed by the Department for the project.

Then discussions were held regarding the continuation of the project. Note that the employees of both institutes have completed "starter", "pre-intermediate", and "intermediate" language level groups and received certificates corresponding to the respective levels. Soon, continuing the project, the next language level groups will be organized and the training program will be started.

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ TƏDQİQAT MƏRKƏZİ İLƏ ƏMƏKDAŞLIQ ETMƏYƏ BAŞLAMIŞDIR

## DEPARTMENT HEAD STARTED TO COOPERATE WITH THE INTERNATIONAL RESEARCH CENTER

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Cesran International (Center for Strategic Research and Analysis) mərkəzi nəzdində tədqiqatçı (associate fellow) kimi çalışmağa başlamışdır.

Dr. Vəliyev mərkəzin təşkil etdiyi iki beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. Son olaraq mərkəzin jurnallarından olan Political Reflection jurnalında "Peace Negotiations Over Karabakh: Opportunities and Challenges" ("Qarabağ üzərindəki sülh danışıqları: imkanlar və çağırışlar") mövzusunda məqaləsi dərc olunmuşdur..

Dr. Vəliyevin mərkəzlə olan əməkdaşlığı, əsasən, tədqiqatların nəşri və konfranslarda məruzə ilə çıxış etmək çərçivəsində olacaqdır.

Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy of Khazar University, started working as an associate fellow at Cesran International (Center for Strategic Research and Analysis).

Dr. Valiyev delivered a speech at two international conferences organized by the center. Finally, an article on "Peace Negotiations Over Karabakh: Opportunities and Challenges" was published in one of the center's journals Political Reflection.

Dr. Valiyev's cooperation with the center will mainly be within the scope of publishing researches and delivering reports at conferences.

*https://cesran.org/about-us/our-team-1*

# XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ "ÜZEYİR HACIBƏYLİ XV BEYNƏLXALQ MUSİQİ FESTİVALI"NDA

# KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA AT "UZEYIR HAJIBEYLI XV INTERNATIONAL MUSIC FESTIVAL"



*Orxan Həşimov*

Sentyabrın 23-də festival çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində Xəzər Universitetinin Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim Zülfiyyə Sadıqova) iştirakı ilə Kamera musiqisi axşamı keçirildi.

Solistlər əməkdar müəllim Zülfiyyə Sadıqova (piano), əməkdar artist İlahə Əfəndiyeva (soprano), əməkdar artist Əyyub Əliyev (violonçel), əməkdar artist Şirzad Fətəliyev (balaban) və Nurlan Gəncili (qoboy) idilər.

Kamera musiqisi axşamında Ü. Hacıbəyli`nin "Sevgili canan", F.Obradors`un "Chiquitita la novia", Q.Qarayev-C.Hacıyev`in "Vətən"operasından "Dilbərin ariyası", Ə.Hüseynzadə`nin "Vəslin həvəsi", R.Schuman`ın "Romans", F.Əmirov`un "Məhəbbət rəqsi", K.Debussy`nin "Sevinc adası", F. Lizst`in"Transsendental etüde F-moll, №10", A. Rzayev`in "Düşüncə" və N.Əliverdibəyovun "Ləzginka" əsərləri ifa olundu.

On September 23, within the framework of the festival, an evening of chamber music was held at the National Art Museum of Azerbaijan with the participation of the Khazar University Chamber Orchestra (artistic director, the head of the university's Music and Art Department, Honored Teacher Zulfiyya Sadigova).

The soloists were honored teacher Zulfiyya Sadygova (piano), honored artist Ilaha Efendiyeva (soprano), honored artist Ayyub Aliyev (cello), honored artist Shirzad Fataliyev (balaban) and Nurlan Ganjali (oboe).

In the evening of chamber music, U.Hajibeyli's "Dear Beloved", F. Obradors`s "Chiquitita la novia", "Dilbar's Aria" from G.Garayev- J.Hajiyev's opera "Motherland", A.Huseyinzade's "The hope of the soul", R.Schuman`s "Romance", "Dance of Love" by F.Amirov, K.Debussy's "The Island of Joy", F.Liszt's "Transcendental Etude F minor, No. 10", "Thought" by A.Rzayev and "Lezginka" by N.Aliverdibeyov were performed.



Zülfiyyə Sadıqova

On September 25, Khazar University's Chamber Orchestra performed a concert program at Azerbaijan Technical University within the framework of the festival. The conductor was the conductor of the Azerbaijan State Academic Opera and Ballet Theater Orkhan Hashimov.

At the concert U.Hajibeyli's "Arazbari", E.Elgar's "Serenade" for strings, F.Garayev's "In Memorium" and other works were performed.



Əyyub Əliyev

Sentyabrın 25-də Xəzər Universitetinin Kamera orkestri festival çərçivəsində Azərbaycan Texniki Universitetində konsert proqramı ilə çıxış etdi. Dirijor Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru Orxan Həşimov idi.

Konsertdə Ü. Hacıbəyli`nin "Arazbarı", E.Elgar`ın simlilər üçün "Serenada", F. Qarayev`in "In memorium" və digər əsərlər ifa olundu.



İlahə Əfəndiyeva



Nurlan Gəncili




# "MY KARABAKH OR THE KARABAKH KNOT"

**By Moussa Baccus**

**PhD in French Literature and former Assistant Professor of French, University of Toronto. Ex Bilingual Statistical and Research Analyst, Ministry of Education, Ontario (Canada)**

*Canadian researcher Ph.D. Moussa Baccus reviewed Hamlet Isaxanli's book "My Karabakh or the Karabakh Knot". He emphasized that this book was written by an author who indeed dreams of peace and that an objective view of the Armenian-Azerbaijani conflict was given.*

*The review has been published in the Vol. 1, No. 1 of the Ottawa Journal of International and Public Affairs (OJIPA) in July 2023*

My Karabakh or The Karabakh Knot is a book written by Hamlet Isaxanli. It is not a history book, not a novella either, it is rather an exposé on the disputed region of Nagorno-Karabakh and the ensuing ethnic and territorial conflict between Armenia and Azerbaijan. It is published as a special issue in the Khazar Journal of Humanities and Social Sciences[1].

In the usual discourse between form and substance, this book is noted for the absence of the usual layout expected of a book. There is no classic form of dividing the book in chapters and paragraphs, the former devoted to a major theme, the latter exploring separate ideas within that theme. Yet, there are many themes in this book. Instead, we see sub-titles assuming the role of new chapters on the same page, and each sub-title presenting a thematic discussion and within which there are sometimes new sections identified with three asterisks.

The book follows a clear thematic outline, chronicling the shared heritage of Armenians and Azerbaijanis, be it in literature and music, or Azerbaijani intellectual accomplishments acknowledged by Armenians. Then follows history as taught by people with conflicting ideologies culminating in the addition of Russia in the relationship between Armenia and Azerbaijan and the ensuing territorial disputes of the early 20th century.

The use of the possessive in the title should offer a clear hint to the reader. Hamlet Isaxanli is not reporting on the conflict from a distance, nor does he do so as a historian. Yet, there is no denying that he has a vested interest in the conflict. He is at the forefront of the story; at times he is the story. There will be neither hints nor mind-playing with the reader. It is explicit in the very first page. "I am an inhabitant of the Caucasus… I want the people of the Caucasus to live peacefully as neighbours…" That is the personal history of the author, adding a new dimension to the conflict, loud and unmistaken cri de coeur.

The development of strong themes is the forte of the book. Because the author's personal story is mixed with the narrative, it makes for a profound account of the conflict not only between two countries but between two ethnic groups that have shared a lot in the past.

Hamlet Isaxanli gives us a brief overview of the history of Armenia and Azerbaijan, and how the inhabitants of these two lands, interwoven over hundreds of years, have found themselves around a land called Karabakh.

---

[1]. Volume 24, Special Issue, Number 4, Khazar University Press, 2021. Available at https://jhss-khazar.org/wp-content/uploads/2022/03/My-Karabakh-or-the-Karabakh-Knot.pdf (accessed on 27 July 2023).

The conflict has fabricated two enemies, borne out of an attempt to give it a political meaning; but beyond the enmity, the author argues the two people have more in common than they think. We quickly learn how there is a common literature that existed for a long time, we are told how artists that shared two cultures thrived in a land without animosity where the two peoples lived peacefully side by side. That was until the "Armenian Question", the focal point where things started to degenerate into chaos followed by territorial disputes.

If the first Nagorno-Karabakh war, which Azerbaijan lost, brought humiliation to the nation, it provided the country with the impetus to develop its economy with its huge reserves of oil and gas, bidding its time until the second Nagorno-Karabakh war which it won handily this time. Hamlet Isaxanli stays clear of assigning blame explicitly although there are implicit hints of where the source of the conflict originated. This is where he distances himself from a historian in the scholarly sense.

Rather than celebrate the return of Karabakh into Azerbaijan territory, Hamlet Isaxanli allows his personal story to take over. He wonders loudly if Russia and Turkey would oppose peace between the two nations. In the end though he reckons that the true opposition to peace stems from Armenians and Azerbaijanis themselves.

The book is more than the Nagorno-Karabakh conflict. On paper, the conflict is a territorial dispute that led directly to two wars. To the author however, it is at the centre of history depicting the relationship between Armenians and Azerbaijanis. His is a poignant and powerful voice from the heart exhorting the two peoples to embrace peace and co-existence. For they are closer than they think.

## What the Back Cover says ...

*"Beautiful Karabakh has long been a source of tensions and confrontations: it has long exacerbated hostilities, and as a result, it has given rise to wars between Azerbaijan and Armenia and between Azerbaijanis and Armenians. How did this happen? Why did this happen? What is the root of this issue? How did this difficult situation, this jumbled knot, arise? How can this knot come untangled? These and similar questions, as well as thoughts on the Second Karabakh War in the fall of 2020, compelled me to complete this work.*

*"There are numerous aspects of this publication that I feel might be of interest to readers, including the history of relations between the Azerbaijani and Armenian people. my own personal observations and experiences. passages from Azerbaijani and Armenian literature, articles in the media on the life and concerns of the Azerbaijani and Armenian people. possible solutions for the current situation, and possible outcomes for the future of Karabakh. First of all, I appeal to both Azerbaijani and, especially. Armenian readers. I think there is a strong need for such a conversation between our people...*

*"Armenians and Azerbaijanis! We need to make peace: has enough blood not been shed? In some hearts and minds, the war still goes on. It is time to change! Now there is a need to put aside the question of who is to blame. It is time to direct bilateral talks. Extremist nationalism gives the nation a myth and brings only misery. Imagination is a winged creature: it flies, but reality walks on the ground. It is good to dream but in life, a person does not fly they walk. Let us think about today and tomorrow. Emotional shock is understandable. There have been tragedies in the history of every nation. This is not supposed to result in everlasting hatred between nations. Hatred is building a wall in the present. which limits us. deprives us of seeing the other side of the wall. We need to build a bridge: a bridge of human relations. "Economic and cultural cooperation is better than the construction of the walls of hatred. History has shown that over time, animosity between nations sevinc.sheydayeva@khazar.org 05 Oct 2023 and states disappears because there is no point in perpetuating hostility; it harms both sides."*

## KANADALI TƏDQIQATÇI HAMLET İSAXANLININ "MƏNIM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ" ADLI KITABINA RƏY YAZMIŞDIR

Kanadalı tədqiqatçı Dr. Moussa Baccus Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabına rəy yazmışdır. O, kitabın həqiqi sülh arzusunda olan müəllif tərəfindən yazıldığını və Ermənistan-Azərbaycan münaqişəsinə obyektiv fikir bildirildiyini vurğulamışdır.

Rəy 2023-cü ilin iyul ayında "Ottawa Journal of International and Public Affairs" jurnalının ("Ottava Beynəlxalq və İctimai Əlaqələr Jurnalı") 1-ci cildində dərc edilmişdir.

## NAİLƏXANIM MUZEYİ TƏQDİM EDİR: "TARİXDƏ İZ SALAN, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TÖHFƏ VERƏN QADINLAR" SERİYASININ NÖVBƏTİ KİTABI

## NAILEKHANIM MUSEUM PRESENTS: THE NEXT BOOKS OF THE SERIES" WOMEN WHO MADE A MARK IN HISTORY AND CONTRIBUTED TO AZERBAIJANI CULTURE"




# "SARA (SARAY) XATUN"

Seriyanın "Sara (Saray) Xatun" adlı 6-cı kitabı Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmışdır. Kitabın müəllifləri professorlar Hamlet İsaxanlı və Şahin Fazildir.

Kitab Azərbaycanın ilk diplomat qadını Sara (Saray) Xatuna həsr olunmuşdur. Onun Ağqoyunlu və Qaraqoyunlularla bağlı diplomatik missiyası, Osmanlı hökmdarı Sultan Mehmed Fatih ilə görüşməsi və sülhə nail olması, həmçinin Məmlüklər, Teymurilər və Venesiya ilə bağlı diplomatik səyləri qələmə alınmışdır.

Kitaba çoxlu fotoşəkillərlə yanaşı, Sara (Saray) Xatunun Azərbaycan rəssamlığındakı təsvirləri də daxil edilmişdir (Xalq rəssamı Altay Hacıyev və rəssam Cəmaləddin İsmayılov) Ümumilikdə seriyanın daha bir kitabı nəfis şəkildə oxuculara təqdim olunmuşdur.

# "SARA (SARAY) KHATUN"

The 6th book of the series entitled "Sara (Saray) Khatun" was published by Khazar University Publishing House. The authors of the book are professors Hamlet Isakhanli and Shahin Fazil.

The book is dedicated to Sara (Saray) Khatun, the first female diplomat of Azerbaijan. Her diplomatic mission regarding the Aq Qoyunlu and Qara Qoyunlu, her meeting with the Ottoman ruler Sultan Mehmed Fatih and achieving peace, as well as her diplomatic efforts regarding the Mamluks, Timurids, and Venice are noted.

Along with many photographs, the book includes images of Sara (Saray) Khatun by Azerbaijani artists (People's artist Altay Hajiyev and artist Jamaladdin Ismayilov).

This book of the series was also presented to the readers in an elegant way.

## SUMQAYIT "DÜNYA MƏKTƏBİ" VƏ XƏZƏR UNİVERSİTETİ EKOLOJİ TƏDQİQATLAR MƏRKƏZİNİN BİRGƏ ÇÖL İŞİ

## JOINT FIELDWORK OF SUMGAYIT DUNYA SCHOOL AND ENVIRONMENTAL RESEARCH CENTER OF KHAZAR UNIVERSITY

Oktyabrın 17-də Xəzər Universiteti Ekoloji Tədqiatlar Mərkəzinin Direktoru Rövşən Abbasov Sumqayıt "Dünya" məktəbinin şagirdləri ilə birlikdə ekskursiyada olmuşdur.

Əvvəlcə Rövşən Abbasov kameral şəraitdə 2015-2020 illərdə "Pure Earth" təşkilatı və Sumqayıt Bələdiyyəsi ilə birgə Sumqayıtda keçirilmiş təmizləmə layihəsi haqqında məlumat vermişdir. Sonra məktəbin İB sektorunun 6-8-ci sinif şagirdləri ilə birlikdə Sumqayıt ətrafındakı təmizləmə məntəqlərindən birinə çöl səyahəti təşkil olunmuşdur. Çöl işi zamanı uşaqlar əvvəllər sənaye çirklənməsinə məruz qalan və daha sonra təmizlənmə layihəsinin keçirildiyi ərazi haqqında ətraflı məlumatlar almışlar.

On October 17, Khazar University Environmental Research Center Director Rovshan Abbasov was in a field trip with the students of the World School in Sumgait City.

First, Rovshan Abbasov informed about the cleanup project conducted in Sumgait in 2015-2020 in cooperation with "Pure Earth" organization and Sumgait Municipality. Later, 6-8 grade students of PU sector of Sumgayit World School

A field trip was organized to one of the cleanup sites around Sumgait. During the fieldwork, the Dunya school students visited an area that was previously subject to industrial pollution and later was cleaned from pollution. The students received detailed information about the historical pollution in the site and cleanup processes.



## XƏZƏR UNİVERSİTETİNDƏ AVROPA DİLLƏRİ GÜNÜ

## EUROPEAN LANGUAGES DAY AT KHAZAR UNIVERSITY



Sentyabrın 26-da Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində Latviyanın EUNIC-ə sədrliyi çərçivəsində Xəzər Universiteti və Latviyanın Azərbaycan Respublikasındakı səfirliyi tərəfindən Avropa Dilləri Günü münasibətilə tədbir təşkil olunmuşdu. Tədbirdə Xəzər Universitetinin və Latviya səfirliyinin rəhbərliyi və əməkdaşları, tələbələr, həmçinin Azərbaycanda diplomatik xidmətdə olan səfirlər və onların nümayəndələri iştirak edirdilər.

Tədbirin aparıcıları Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri Tamella Məmmədli və Sonası Vəliyeva idi. Tədbir Xəzər Universitetinin Kamera orkestri tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin və Avropa Himninin ifası ilə başlandı.

Sonra Xəzər Universiteti "Dünya" məktəbinin şagirdləri iştirakçıları Avropanın 21 dilində salamladılar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlilova və Latviya Respublikasının Azərbaycandakı fövqəladə

On September 26, an event on the occasion of the European Language Day was organized by Khazar University and the Latvian embassy in the Republic of Azerbaijan as part of the Latvian presidency of EUNIC at the Fikrat Amirov conference-Concert Center on the Downtown Campus of Khazar university. The event was attended by the administration and staff of Khazar University and the Latvian embassy, students, as well as ambassadors and their representatives in the diplomatic service in Azerbaijan.

The presenters of the event were Tamella Mammadli and Sonasi Valiyeva, instructors of the English Language and Literature Department of Khazar University. The event began with the performance of the National Anthem of the Republic of Azerbaijan and the European Anthem by the Khazar University Chamber Orchestra.

Then students of Khazar University "Dunya" school greeted the participants in 21 European languages.

The founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Prof.Acad. Hamlet Isakhanli, rector of the University, Assoc. Prof. Irada Khalilova, and Ambassador Extraordinary and





*Daynis Qarançs*

və səlahiyyətli səfiri Daynis Qarançs çıxış edərək, belə tədbirlərin qeyd olunmasının xalqlar arasında əlaqə və ünsiyyət yaranmasında böyük önəmini vurğuladılar.

Avropa himninin müxtəlif dillərdə videolenti nümayiş olundu.

Daha sonra hər ölkənin nümayəndələri tərəfindən iştirakçılar ilə birlikdə interaktiv oyunlar keçirildi. Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin filologiya ixtisasının tələbələri Şayəstə Məlekan, Fatimə Əliyeva və Rəmalə Həsənova tərəfindən "Hind-Avropa dilləri" mövzusunda maraqlı təqdimatla çıxış etdilər. Tədbir iştirakçıları müxtəlif ölkələrin adət-ənənələrini əks etdirən rəmz və bukletlərin olduğu stendlərə də baxdılar.

Qeyd edək ki, Avropa Dilləri Günü hər il sentyabrın 26-da Avropada və digər ölkələrdə keçirilən bayramdır. 2001-ci il dekabrın 6-da Avropa Şurası tərəfindən təsis edilib.

Plenipotentiary of the Republic of Latvia to Azerbaijan, Daynis Garancs, spoke and emphasized the great importance of celebrating such events in the establishment of relations and communication between peoples.

A short video of the European anthem was shown in different languages.

Then interactive games were held by representatives of each country together with participants. Shayasta Malekan, Fatima Aliyeva and Ramala Hasanova, students of the Department of English Language and Literature of Khazar University, majoring in philology, made an interesting presentation on "Indo-European languages". Participants of the event also viewed stands with symbols and booklets reflecting the traditions of different countries.

Note that the Day of European Languages is held annually on September 26 in Europe and other countries. It was established by the Council of Europe on December 6, 2001.










## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN BAŞ MÜƏLLİMİ "GÖYÇAY ENSİKLOPEDİYASI"NDA

Yeni çapdan çıxmış "Göyçay Ensiklopediyası"nda Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi "Qabaqcıl təhsil işçisi" Firəngiz Sədiyar qızı Nəsirova haqqında da məqalə və fotosu verilmişdir.

Məqalədə qeyd olunur ki, F. Nəsirova 1970-ci ildə Azərbaycan Xarici Dillər İnstitutunu (AXDİ; indiki Azərbaycan Dillər Universiteti -ADU) ingilis dili müəllimi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. 1970-1991-ci illərdə AXDİ-də müəllim kimi fəaliyyət göstərib. Həmin vaxtdan indiyədək Xəzər Universitetində çalışır. Hazırlıq fakültəsinin dekanı, Audio-video Mərkəzinin direktoru olmuş, hazırda baş müəllim kimi fəaliyyətini davam etdirir.1990-1992-ci illərdə, eyni zamanda, Azərbaycan Dövlət Neft Akademiyası (indiki ADNSU) nəzdindəki Biznes kollecində də ingilis dili müəllimi kimi çalışıb.




Elmi fəaliyyəti ilə əlaqədar ABŞ-ın Los-Anceles Universiteti və Böyük Britaniyanın Mottingem Trent Universitetində, Avstriyanın Zalsburq Təhsil və Mədəniyyət Mərkəzində çalışmış, müxtəlif konfrans və tədbirlərdə iştirak etmişdir. İngilis dili və ədəbiyyatının tədrisi metodikası ilə əlaqədar bir sıra beynəlxalq sertifikatlara layiq görülüb.

1999-cu ildən, eyni zamanda, Britaniya səfirliyinin Xarici Diplomatlarla iş Mərkəzində məsləhətçi kimi fəaliyyət göstərir.Əsas tədqiqat sahəsi "İngilis ədəbiyyatı: Şekspir klassik və modern dövrdə" mövzusudur.

Ensiklopediya məqaləsində Firəngiz Nəsirovanın çap olunmuş əsərləri haqqında da məlumat verilir:

*"Hüquqlarımızın tələbi". Tərcümə, 2 cilddə, 1997, Qlobal Bacılıq İnstitutunun (Washington D.C.) sifarişi ilə; Azərbaycan dilini öyrənən xaricilər üçün "Azərbaycan dili" dərsliyi (Hamlet İsaxanlı ilə birgə), Bakı, 2000; "Poetik tərcümə toplusu". (Hamlet İsaxanlı ilə birgə). I cild, Xəzər Universiteti nəşriyyatı, 2005; "Yaşamağa nə var ki?". Poetik tərcümələr və esselər. Xəzər Universiteti nəşriyyatı, 2018.*

## SENIOR LECTURER OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT IN "GOYCHAY ENCYCLOPEDIA"

The newly published "Goychay Encyclopedia"contains an article about Firangiz Sadiyar Nasirova, "Advanced Education Worker",the senior lecturer at the Department of English Language and Literature at Khazar University.

The article notes that in 1970, F. Nasirova graduated from the Azerbaijan Institute of Foreign Languages

(now Azerbaijan University of Languages-AUL) with honors in the specialty of English teacher. In 1970-1991, she worked as an instructor at Azerbaijan Institute of Foreign Languages. She has been working at Khazar University since then. She was the dean of the Preparatory Faculty, the director of the Audio-video Center, and currently continues her work as a senior teacher. In 1990-1992, she also worked as an English teacher at the Business College under the Azerbaijan State Oil Academy (now ASOIU).

As part of her scientific activity, she worked at the University of Los Angeles, USA, Nottingham Trent University, UK, Salzburg Educational and Cultural Center in Austria, attended various conferences and events. She was awarded a number of international certificates on teaching methods of English language and literature.

Since 1999, at the same time, she has been working as a consultant at the Center for Work with Foreign Diplomats of the British Embassy. Her main field of research is "English literature: Shakespeare in classical and modern times".

The encyclopedia article also provides information about Firangiz Nasirova's published works:

*"Demand for our rights" Translation, in 2 volumes, 1997, commissioned by the Global Sisterhood Institute (Washington D.C.); "Azerbaijan language" textbook for foreigners learning the Azerbaijani language (jointly with Hamlet Isakhanli), Baku, 2000; "Collection of poetic translations". (with Hamlet Isakhanli). Volume I, Khazar University publishing house, 2005; "The life would be so easy" Poetic translations and essays. Khazar University publishing house, 2018.*

## HÜSEYN CAVİDİN EV MUZEYİNDƏ SEMİNAR

## SEMINAR AT HUSEYN JAVID'S HOUSE MUSEUM



Sentyabrın 27-də Hüseyn Cavidin ev muzeyində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Xatirə Yusifova tərəfindən "Azərbaycan ədəbiyyatında romantizm mərhələsi" mövzusunda seminar keçirilmişdir.

Seminarda universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsində Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan 3-cü kurs tələbələri də iştirak etmişdir. Tələbələrə ədəbi hadisə olan Azərbaycan romantizminin tipologiyası, onun ayrı-ayrı nümayəndələrinin bədii təcrübəsi haqqında geniş məlumat verilmişdir.

On September 27, Assoc. Prof. Khatira Yusifova, a lecturer of the Department of Languages and Literatures of Khazar University, held a seminar on "Romanticism in Azerbaijani literature" at Huseyn Javid's home museum.

The seminar was also attended by 3rd year students majoring in Azerbaijani language and literature at the School of Humanities, Education and Social Sciences of the University. The students were given detailed information about the typology of Azerbaijani romanticism, which is a literary phenomenon, and the artistic experience of its individual representatives.

# YENİ ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN ORİYENTASİYA GÜNÜ
# ORIENTATION DAY FOR NEW INTERNATIONAL STUDENTS



*İradə Xəlilova*



Sentyabrın 28-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi universitetə yeni qəbul olunmuş əcnəbi tələbələr üçün oriyentasiya günü keçirdi. Tədbir zamanı yeni gələn tələbələr qayda və prosedurlar barədə məlumat, habelə, Azərbaycanda yaşamaq üçün faydalı tövsiyələr əldə etdilər.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova və Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora`nın tələbələri salamlaması və onlara universitet həyatında uğurlar arzulaması ilə başlanan tədbirdə İqtisadiyyat və menecment fakültəsinin nümayəndəsi Bahar İmanova, Təbiət elmləri və mühəndislik fakültəsinin nümayəndəsi, Kompüter elmləri departamentinin koordinatoru Cavad Mehri Tekmeh, Humanitar, təhsil və sosial elmlər fakültəsinin nümayəndəsi Tərlan Orucova əcnəbi tələbələrə tədris prosesinə aid zəruri məlumatlar verdilər. Tələbələrin bir-birlərini tanımasına imkan yaradan əyləncəli oyun təşkil edildi.

On September 28, Khazar University's International Relations Office held an orientation day for newly admitted international students. During the session, newly arrived students acquired information about regulations and procedures, academic calendar, as well as tips for living in Azerbaijan.

At the beginning of the event, the rector of the university, Assoc.Prof. Irada Khalilova, and the vice-rector for International Relations, Vlad Vernygora, delivered their greetings to the students and wished them success in university life. Bahar Imanova, the representative of the School of Economics and Management, Javad Mehri Tekmeh, the representative of the School of Science and Engineering, coordinator of the Department of Computer Sciences, Tarlan Orujova, the representative of the School of Humanities, Education and Social Sciences, gave information ab-





Beynəlxalq əlaqələr ofisinin koordinatoru Arzu Bədəlova tərəfindən tələbələrə Xəzər Universiteti haqqında təqdimat nümayiş etdirildi. Ofisin koordinatoru Turan Əlizadə miqrasiya məsələlərinə dair tələbələri məlumatlandırdı.

Artıq universitetdə təhsil alan əcnəbi tələbələr də öz təcrübələrini, Azərbaycan haqqında biliklərini yeni tələbələrlə bölüşdülər. Əlavə olaraq, tədbirdə iştirak etmək imkanı olmayan tələbələrin qısa videomesajları təqdim edildi.

Sonda tədbirdə iştirak edən tələbələrə Xəzər Universiteti adından hədiyyələr verildi.





out the educational process to international students.

An entertaining game was organized, allowing students to get to know each other.

The coordinator of the International Relations Office Arzu Badalova delivered a presentation about Khazar University. The coordinator of the office Turan Alizadeh informed the students about migration issues.

International students already studying at the university also shared their experience and knowledge about Azerbaijan with new students. In addition, short video messages of studentswho did not participate in the event were presented. At the end, the students who participated in the event were given gifts on behalf of Khazar University.







## "XƏZƏR"İN ƏMƏKDAŞLARI ANGC-NİN 30 İLLİYİ TƏDBİRİNDƏ

## KHAZAR UNIVERSITY STAFF AT ASPG'S 30TH ANNIVERSARY EVENT



*Akif Nərimanov* *İradə Xəlilova* *Elmir Qaragözov*

Sentyabrın 29-da Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayev və həmin departamentin əməkdaşı Dr. Grigorii Penkov Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti (ANGC) QHT-nin 30 illik fəaliyyətinə həsr olunmuş tədbirdə iştirak etmişlər.

Xəzər Universiteti ilə ANGC arasında sıx əməkdaşlıq mövcuddur. Bu əməkdaşlıq çərçivəsində Neft mühəndiliyi departamentinin tələbələrinə istehsalat mütəxəssisləri tərəfindən çoxsaylı treninqlər keçirilmişdir. Həmçinin, tələbələrin iştirakı ilə geoloji çöl işləri aparılmışdır. Əməkdaşlıq çərçivəsində ANGC -nin Xəzər Universitetində ofisi açılmışdır.

Əməkdaşlığın yüksək səviyyədə olmasına görə SOCAR-ın Azneft İstesalat Birliyinin baş geoloq-direktor müavini Elmir Qaragözov və Neftçi Geoloqlar Cəmiyyətinin İdarəedici heyətinin sədri Akif Nərimanov Xəzər Universitetinin rektoru İradə Xəlilovaya "Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin dostu" mükafatını təqdim etdilər.

On September 29, Khazar University Rector Assoc. Prof. Irada Khalilova, Dean of the School of Science and Engineering Dr. Fakhranda Efendiyeva, Head of the Petroleum Engineering Department Dr. Elshan Abdullayev, and Dr. Grigorii Penkov, an employee of the same department, participated in the event dedicated to the 30th anniversary of the Azerbaijan Society of Petroleum Geologists (ASPG) NGO.

A close collaboration exists between Khazar University and ASPG. Students of the Petroleum Engineering Department received numerous trainings from production specialists as part of this collaboration. Furthermore, geological fieldwork was conducted with the participation of students. Within the framework of the cooperation, ASPG's office was opened at Khazar University.

For the high level of cooperation, the rector of the Khazar University, Irada Khalilova, was presented with the "Friend of the Society of Petroleum Geologists" award.

# "XƏZƏR"İN MƏZUNU "GP COTTON HOLDINGS" MMC-NİN BAŞ İCRAÇI DİREKTORU TƏYİN OLUNUB

# KHAZAR UNIVERSITY GRADUATE APPOINTED CHIEF EXECUTIVE OFFICER OF "GP COTTON HOLDINGS" LLC



Kərimov Famil Qalib oğlu - 1984-cü ildə anadan olub. 2001-ci ildən 2005-ci ilə qədər Xəzər Universitetində "Maliyyə və mühasibat uçotu" ixtisası üzrə fərqlənmə ilə bakalavr dərəcəsini alıb. 2013-2014-cü illərdə İspaniyada IE Business Məktəbində "Biznesin idarə edilməsi" üzrə magistr dərəcəsi ("MBA") almışdır. 2013-cü ildən etibarən Birləşmiş Krallıqda Beynəlxalq Mühasiblər Assosiasiyasının ("FCCA") üzvüdür. O, 2005-2013-cü illər ərzində "Deloitte" və "Baker Tilly" kimi xarici audit şirkətlərdə müxtəlif vəzifələr tutmuşdur.

2015-ci ildən "Cənub Qaz Dəhlizi" QSC-də Kommersiya və Əməliyyatlar Departamentinin direktoru və 2016-cı ildən Gilan Sənaye Qrupunda Baş maliyyə direktoru və Baş direktorun müavini işləmişdir. 2018-ci ildən Gilan Holdinqdə Strateji idarəetmə ofisinin rəhbəri və eyni zamanda Direktorlar Şurasının üzvü vəzifəsində çalışıb. 2021-ci ilin yayından etibarən "AFB Bank" ASC-nin Müşahidə Şurasının üzvüdür.

Famil Ghalib Karimov was born in 1984. In 2001 - 2005, he received his bachelor's degree with honors in "Finance and Accounting" at Khazar University. In 2013-2014 he received a master's degree in "Business Management" ("MBA") from IE Business School in Spain. Since 2013, he has been a member of the Association of Chartered Certified Accountants ("FCCA") in the United Kingdom. During 2005-2013, he held various positions in foreign audit companies such as" Deloitte " and "Baker Tilly".

Since 2015, he has worked as the director of the Commercial and Operations Department at "Southern Gas Corridor" CJSC, and since 2016 as the Chief Financial Officer and Deputy General Director of Gilan Industrial Group. Since 2018, he has worked as the head of the Strategic Management Office at Gilan Holding and at the same time as a member of the Board of Directors. From the summer of 2021, he is a member of the Supervisory Board of "AFB Bank" OJSC.

*https://banker.az/bankin-r%c9%99hb%c9%99rl%c9%99rind%c9%99n-biri-433-milyonluq-holdinq%c9%99-bas-icraci-direktor-t%c9%99yin-edilib/*

## DEKAN BEYNƏLXALQ TÜRKİYƏ MƏZUNLARININ AZƏRBAYCAN TOPLANTISINDA

## DEAN AT AZERBAIJAN MEETING OF INTERNATIONAL TURKISH ALUMNI

Sentyabrın 30-da Türkiyədən Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin və Azərbaycandan Türkiyə Məzunu Ziyalılar və İş adamları Platformasının təşkilatçılığı ilə Bakıda Beynəlxalq Türkiyə Məzunlarının Azərbaycan Toplantısı keçirilib.

İlk dəfə Azərbaycanda təşkil edilən görüşdə elm və təhsil naziri Emin Əmrullayev, (YTB) sədri Abdullah Ərən, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, KKTC Baş nazirinin müavini Fikri Ataoğlu, Türkiyə Kosmik Agentliyinin Prezidenti Serdar Hüseyn Yıldırım, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Azərbaycanın millət vəkilləri və dünyanın 21 müxtəlif ölkəsindən məzunlar birliklərinin nümayəndələri iştirak etmişlər.

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Dos. Elza Səmədova cari qlobal məsələlərin və Azərbaycanın geosiyasi önəminin müzakirə olunduğu tədbirdə panelist qismində çıxış etmişdir.

On September 30, the Azerbaijan Meeting of International Turkish Alumni was held in Baku under the organization of Turks Abroad and Related Communities from Türkiye, Türkiye Alumni Intellectuals and Businessmen Platform from Azerbaijan.

The meeting held for the first time in Azerbaijan, was attended by Minister of Science and Education Emin Amrullayev, Head of the Presidency for Turks Abroad and Related Communities Abdullah Eren, Chairman of the State Committee on Work with the Diaspora Fuad Muradov, Deputy Prime Minister of TRNC Fikri Ataoghlu, President of the Turkish Space Agency Serdar Huseyin Yildirim, Ambassador of Türkiye in Baku Cahit Bagci, MPs of Azerbaijan and representatives of alumni associations from 21 different countries of the world.

Assoc. Prof. Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, spoke as a panelist at the event where current global issues and the geopolitical importance of Azerbaijan were discussed.

## TƏLƏBƏLƏR FOLKLOR İNSTİTUTUNDA ELMİ TƏDQİQAT TƏCRÜBƏSİNDƏ

## STUDENTS BEGIN RESEARCH EXPERIENCE AT THE INSTITUTE OF FOLKLORE

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs tələbələri 2023-2024-cü tədris ilinin payız semestri çərçivəsində AMEA Folklor İnstitutunda Folklor elmi tədqiqat təcrübəsinə başlayıblar. Folklor elmi tədqiqat təcrübəsi filologiya ixtisası üzrə təhsil alan tələbələrin tədris prosesində əldə etdikləri nəzəri biliklərin müasir elmi yanaşmalar kontekstində tətbiqi, onlarda tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması məqsədilə həyata keçirilir. Elmi tədqiqat təcrübəsinə rəhbərlik edən AMEA Rəyasət Heyətinin elmi katibi Dos. Hikmət Quliyev filologiya fakültəsinin tələbələrini AMEA Folklor İnstitutunun baş direktoru, akademik Muxtar İmanovla tanış etdi. Akademik M.İmanov tələbələrə institutun elmi tədqiqat istiqamətləri, əldə olunan mühüm nailiyyətlər, dövri nəşrlər haqqında geniş məlumat verdi.

Sonra tələbələr Folklor İnstitutunun Türk xalqları folkloru şöbəsində oldular. Şöbənin müdiri, filologiya elmləri doktoru, professor Əfzələddin Əskər şöbənin digər əməkdaşlarının iştirakı ilə Türk xalqları folkloru şöbəsinin fəaliyyəti, aparılan tədqiqat yönləri, tərcümə sahəsində görülən mühüm işlər barədə tələbələrə məlumat verdi. Görüş zamanı tələbələri maraqlandıran mövzular, o cümlədən, folklorun toplanılması, akademik prinsiplər əsasında araşdırılması məsələləri müzakirə olundu.

The 4th year students of the School of Humanities, Education and Social Sciences of Khazar University, majoring in "Philology (Azerbaijani language and literature)" began research experience in Folklore at ANAS Institute of Folklore in the autumn semester of the 2023-2024 academic year. The research experience in Folklore is carried out in order to apply the theoretical knowledge acquired in the educational process of Philology students in the context of modern scientific approaches and to develop their research abilities. The Scientific Secretary of the Presidium of ANAS, Associate Professor Hikmat Guliyev, who led the research experience, introduced the students of the Faculty of Philology to Academician Mukhtar Imanov, General Director of ANAS Institute of Folklore. Academician M.Imanov provided students with detailed information about the Institute directions of scientific research, important achievements and periodicals.

Then the students visited the Department of Folklore of Turkic Nations of the Institute of Folklore. The head of the Department, Doctor of Philology, Professor Afzaladdin Askar, with the participation of other employees of the Department, introduced the students with the activities of the Department of Folklore of Turkic Nations, areas of research, and important works in the field of translation. The meeting discussed topics of interest to students, including folklore collections and research based on academic principles.

## "PRODÜSERLƏRİN İNKİŞAF TƏLİMİ" VƏ "ANİMATORLARIN İNKİŞAF PROQRAMI" ADLI TƏLİMLƏRİN İNFOSESSİYALARI



*Rəşid Ağamalıyev*

Oktyabrın 4-də Xəzər Universitetində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA), Azərbaycan Animasiya Assosiasiyası və Azərbaycan Prodüserlər Gildiyasının təşkilatçılığı ilə "Prodüserlərin inkişaf təlimi" və "Animatorların inkişaf proqramı" adlı təlimlərin infosessiyaları təşkil olundu. Tədbirdə tələbə-müəllim heyəti ilə yanaşı Xəzər Universiteti Memarlıq və dizayn departamentinin müdiri Dos. Şəhla Abbasova, Azərbaycan Animasiya Assosiasiyası İdarə Heyətinin sədri Rəşid Ağamalıyev, Azərbaycan Prodüserlər Gildiyasının sədri Fikrin Bektaş, rejissor Firəngiz Bağırova iştirak etdilər.

Təlimlər Mədəni və yaradıcı sənayelər üzrə tədris və inkubasiya mərkəzində keçiriləcək. Ən uğurlu iştirakçıların işlə təmin olunması və beynəlxalq layihələrə cəlb edilməsi nəzərdə tutulub.

Təlimlərə qeydiyyat davam edir: *edu.creative.az* vasitəsilə həyata keçirilir.

Təlimlər Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nın tədbirlər planının 1.1.14-cü yarımbəndinə uyğun olaraq təşkil olunur.



*Firəngiz Bağırova*

## "DEVELOPMENT OF PRODUCERS TRAINING" AND "DEVELOPMENT OF ANIMATORS PROGRAM" TRAININGS INFO SESSIONS ORGANIZED

On October 4, 2023, Khazar University hosted information sessions of the trainings "Development of Producers Training" and "Development of Animators Program" organized by the Cinema Agency of the Republic of Azerbaijan (ARKA), Azerbaijan Animation Association and Azerbaijan Producers Guild with the support of the Ministry of Culture of the Republic of Azerbaijan. The event was attended by the head of the Department of Architecture and Design of Khazar University, Associate Professor Shahla Abbasova, chairman of the Board of the Azerbaijan Animation Association Rashid Aghamaliyev, chairman of Azerbaijan Producers Guild Fikrin Bektash and film director Firangiz Baghirova, along with an academic community.

The trainings will be held at the Educational and Incubation Center for Cultural and Creative Industries. The most successful participants are expected to be employed and involved in international projects.

Registration for trainings continues and is carried out through edu.creative.az.

The trainings are organized in accordance with subsection 1.1.14 of the Action Plan of the "Strategy for Socio-Economic Development of the Republic of Azerbaijan for 2022-2026", approved by the Presidential Decree no. 3378 of the Republic of Azerbaijan dated July 22, 2022.



## TƏLƏBƏLƏR ÜÇÜN MUZEY-SƏRGİ ZALINDA DƏRS

Oktyabrın 7-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşəbbüsü və təşkilatçılığı ilə birinci kurs tələbələri AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Muzey-sərgi zalında "Arxeologiya və etnoqrafiyanın əsasları" fənni üzrə təşkil olunmuş arxeoloji ekskurs-dərsdə iştirak etmişlər. Qeyd etmək lazımdır ki, bu fənn Dr. Y.Məmmədov ilə birlikdə tədris olunur və AR Təhsil Nazirliyinin zəruri fənlərindəndir.

Dərsdə tələbələrə Azərbaycan arxeologiyasının keçdiyi tarixi yol, bu elm sahəsinin Azərbaycanda təşəkkülü, aparılan tədqiqatlar və bu araşdırmaların milli maraqlara dəstəyi barədə danışılmış, Muzey-sərgi zalının strukturu izah edilmişdir.

Tələbələrə arxeologiya elminin əyani tədrisi məqsədilə təşkil olunmuş ekskurs-dərsdə daş dövründən orta əsrlərə kimi Azərbaycanda mövcud olmuş və arxeoloji çöl tədqiqatları nəticəsində əsasən müstəqillik illərində aşkara çıxarılmış eksponatlar barədə geniş məlumat verilmişdir. Böyük maraqla qarşılanan ekskursiya tələbələrin sualları və müzakirələri ilə yekunlaşmışdır.

## LESSON FOR STUDENTS IN THE MUSEUM-EXHIBITION HALL

On October 7, with the initiative and coordination of Orkhan Zamanov, the lecturer of the History and Archeology Department of Khazar University, organized an archaeological excursion-lesson on the subject "Basics of Archeology and Ethnography" in the museum-exhibition hall of the Institute of Archeology, Ethnography and Anthropology of ANAS for the first-year students. Note that this subject is taught together with PhD Y. Mammadov and is one of the compulsory subjects of the Ministry of Science and Education of the Republic of Azerbaijan.

Wide range of topics,such as the historical path of Azerbaijani archeology, the formation of this branch of science in Azerbaijan, the researches carried out and the support of these researches to national interests, and the structure of the museum-exhibition hall were covered in the lesson.

In the excursion-lesson organized for visual teaching of archeology, detailed information was provided about the exhibits that existed in Azerbaijan from the Stone Age to the Middle Ages and were discovered mainly during the years of independence as a result of archaeological field research. The excursion, which was met with great interest, ended with students' questions and discussions.

## HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİNDƏ MƏSLƏHƏT ŞURASININ İCLASI

Oktyabrın 10-da Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsində əmək bazarı və iş dünyası nümayəndələrinin təmsil olunduğu Məsləhət Şurasının 2024-2025-ci tədris ili üçün tələbə qəbulu planının müzakirəsi ilə əlaqədar iclası keçirilib.

İclasda 2023-2024-cü tədris ili üçün tələbə qəbulu planı və qəbul olunan tələbə sayı əsasında təhlillər aparılmış və növbəti tədris ili üçün müvafiq ixtisaslar üzrə tələbə qəbulu barədə təkliflər verilmişdir. Eləcə də, əmək bazarında müxtəlif ixtisaslar üzrə mövcud ehtiyaclar (rus dilində müəllim hazırlığı, rus dilli mütəxəssislərinin çatışmazlığı, ibtidai sinif müəllimliyi (tədris ingilis dilində) ixtisasında Beynəlxalq Bakalavriat Proqramının tələblərinin nəzərə alınması, erməni, gürcü, ispan dillərinin tərcüməsi üzrə kadr hazırlığı və s. məsələlər müzakirə olunmuşdur.

## MEETING OF ADVISORY BOARD AT THE SCHOOL OF HUMANITIES, EDUCATION AND SOCIAL SCIENCES

On October 10, the School of Humanities, Education and Social Sciences of Khazar University hosted a meeting with members of the Advisory Board, where representatives from the labor market and business world were represented, to discuss the student admission plan for the 2024-2025 academic year.

Analyses were conducted and proposals were made regarding the admission of students in the relevant specialties for the next academic year based on the student admission plan for the 2023-2024 academic year. In addition, the current needs in various specialties in the labor market (teacher training in Russian, lack of Russian-speaking specialists, taking into account the requirements of the International Bachelor's program in primary school teaching (teaching in English), staff training in Armenian, Georgian, Spanish translation and other issues were discussed.

# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ SƏFİRİ İLƏ GÖRÜŞ

# MEETING WITH AMBASSADOR OF THE KINGDOM OF SAUDI ARABIA



*İssam bin Saleh əl-Cuteyli, Hamlet İsaxanlı, İnqilab Əhmədov, İradə Xəlilova, Əlövsət Əmirbəyli, Fatimə Vəliyeva*

Oktyabrın 10-da Səudiyyə Ərəbistanı Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə səfirlikdə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Beynəlxalq əlaqələr ofisinin rəhbəri Fatimə Vəliyeva iştirak etmişlər.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında münasibətlərin əhəmiyyəti haqqında, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və Səudiyyə Ərəbistanı Krallığının təhsil müəssisələri ilə tərəfdaşlıq istiqamətində fikir mübadiləsi aparılmışdır. Görüşdə Xəzər Universitetinin təhsil sistemi, tələbələrə təklif etdiyi proqramlar haqqında məlumat verilmişdir.

Qeyd etmək istərdik ki, səfirin də verdiyi məlumata əsasən Xəzər Universiteti Səudiyyə Ərəbistanı Krallığı tərəfindən tanınmışdır.

Görüşün sonunda hər iki tərəf hədiyyə təqdim etmişdir.

On October 10, a meeting took place at the Embassy with the newly appointed Ambassador Extraordinary and Plenipotentiary of the Kingdom of Saudi Arabia to Azerbaijan, Essam bin Saleh Al-Jutaili.

The meeting was attended by the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, rector of the University, Associate Professor Irada Khalilova, director of Public Relations and Media Alovsat Amirbayli, dean of the Graduate School of Economics and Business Ingilab Ahmadov, and the head of the International Relations Department Fatima Valiyeva.

Views were exchanged on the importance of relations between Azerbaijan and the Kingdom of Saudi Arabia, strengthening bilateral relations and partnerships with educational institutions of the Kingdom of Saudi Arabia. The meeting provided information about the educational system of Khazar University and the programs offered to students.

According to the ambassador, Khazar University has been recognized by the Kingdom of Saudi Arabia.

At the end of the meeting, both parties presented gifts.

## "TÜRK DÖVLƏTLƏRİ VƏ MƏDƏNİYYƏTLƏRİ TARİXİ" KİTABI ÇAP OLUNUB

Xəzər Universiteti Tarix və arxeoloiya departamentinin müdiri t.ü.f.d. Telman Nüsrətoğlu və Əkbər Nəcəfin birgə hazırladığı "Türk dövlətləri və mədəniyyətləri tarixi" kitabı çapdan çıxıb. Ali məktəblər üçün dərs vəsaiti olaraq nəzərdə tutulan kitab Azərbaycanda elmi cəhətdən mühüm bir boşluğu doldurmaqdadır. Əsər təkcə tarix ixtisası üzrə təhsil alan bakalavriat, magistratura və doktorantura tələbələri üçün deyil, eyni zamanda türk tarixi haqqında ümumi və əhatəli məlumat almaq istəyən hər kəs üçün tövsiyə olunur. Səkkiz yüz səhifəlik kitabda ən qədim dövrlərdən XX əsrə qədər Asiya, Afrika və Avropada yaranmış türk dövlətləri haqqında, o cümlədən siyasi, sosial, iqtisadi, mədəni və daha bir çox sahədə ətraflı məlumat tapmaq mümkündür.




Əsərin ən böyük üstünlüyü ciddi və əhatəli milli konsepsiya əsasında yazılmasıdır. Kitabda türklərin coğrafiyası, təməl xüsusiyyətləri, tarixə çıxışı, hunlar, moğollar, səlcuqlular, türk tarixinin mənbələri, türk dünyasında müasirləşmə kimi olduqca böyük əhəmiyyətə malik mövzulara yer verilmişdir. "Türk dövlətləri və mədəniyyətləri tarixi" kitabı Türk tarixinin mühüm bir tərkib hissəsi olan Azərbaycan tarixi baxımından da önəmli bir müraciət mənbəyi olaraq artıq Azərbaycan tarixşünaslığındakı yerini almışdır.

## THE BOOK "HISTORY OF TURKISH STATES AND CULTURES" PUBLISHED

The book "History of Turkish States and Cultures" jointly prepared by Telman Nusratoghlu, PhD in history, head of Khazar University History and Archeology Department and Akbar Najaf, has been published. The book, which is intended as a teaching aid for high schools, fills an important gap in Azerbaijan scientific. The book is recommended not only for undergraduate, graduate and doctoral students studying history, but also for anyone who wants to get general and comprehensive information about Turkish history. In the eight-hundred-page book, it is possible to find detailed information about the Turkish states that arose in Asia, Africa and Europe from the earliest times to the 20th century, including political, social, economic, cultural and many other fields.

The greatest advantage of the work is its being written on the basis of a solid and comprehensive national concept. The book covers topics of great importance such as the geography of the Turks, their basic characteristics, access to history, the Huns, the Mongols, the Seljuks, the sources of Turkish history, and modernization in the Turkic world. The book "History of Turkish States and Cultures" has already taken its place in Azerbaijani historiography as an important reference source in terms of the history of Azerbaijan, which is an important part of Turkish history.

# "XƏZƏR"İN TƏLƏBƏSİ ŞİMALİ KİPR TÜRK RESPUBLİKASININ PREZİDENTİNƏ HƏDİYYƏ TƏQDİM EDİB

# KHAZAR UNIVERSITY STUDENT PRESENTED A GIFT TO THE TURKISH REPUBLIC OF NORTHERN CYPRUS PRESIDENT



*Ersin Tatar, Şahin Əliyev, Sibel Tatar, Tuyqun Törə*

Oktyabrın 13-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin 4-cü kurs tələbəsi, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin sədri Şahin Əliyev Bakıda "Şimali Kipr Türk Cümhuriyyətinin Mədəniyyət və Təqdimat Günləri" çərçivəsində keçirilən tədbirdə Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar`a və Kipr Türk İş Adamları Dərnəyinin (İŞAD) İdarə Heyətinin üzvü Tuyqun Törə`yə Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərini simvollaşdıran "Qarabağ Azərbaycandır" suvenir- hədiyyəsini təqdim edib.

Şahin Əliyev Azərbaycan ilə Türk dövlətləri arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verməyin hər bir azərbaycanlı gənc üçün şərəf işi olduğunu ifadə edərək, "Ölkənizə xoş gəlmisiniz!" söyləyib. Tədbirdə Prezidentin xanımı, Kipr Türk Sahibkar Qadınlar Dərnəyinin fəxri üzvü Sibel Tatar iştirak etmişdir.

Hədiyyəni qəbul edən Prezident Ersin Tatar və Tuyqun Törə təşəkkürlərini bildiriblər.

On October 13, Shahin Aliyev, 4th year student of the School of Economics and Management of Khazar University, chairman of "Eternal Unity" Youth Public Association presented to the President of the Turkish Republic of Northern Cyprus Ersin Tatar and member of the Board of the Turkish Cypriot Businessmen's Association (ISAD) Tuygun Tore a souvenir gift "Karabakh is Azerbaijan", symbolizing the cultural capital of the Turkic world, the city of Shusha at an event held as part of the "Days of Culture and Presentation of the Turkish Republic of Northern Cyprus" in Baku.

Saying "Welcome to your country!", Shahin Aliyev expressed that promoting the strengthening of friendly and fraternal relations between Azerbaijan and the Turkish states is an honor for every Azerbaijani youth. The president`s wife, honorable member of Women Entrepreneurs Association of Türkiye Sibel Tatar attended the event.

Accepting the gift, President Ersin Tatar and Tuygun Tore expressed their gratitude.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ ERASMUS+ PROQRAMINDA İŞTİRAK EDİB

# INSTRUCTOR OF DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE PARTICIPATED IN ERASMUS+ PROGRAM




İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Aynur Rzayeva sentyabrın 3-8-də Litvanın paytaxtı Vilnüs şəhərində Erasmus+ Gənclər Mübadiləsi layihələri üçün təkliflərin hazırlanması üzrə praktiki təlim kursunda iştirak etmişdir. Təlim kursu AB tərəfdaş ölkələri və Şərq Tərəfdaşlığı ölkələrindən olan Gənc işçilər, Gənc liderlər və Gənc layihə menecerləri üçün nəzərdə tutulmuşdur. Proqramı Gənclərlə İş üzrə Agentlik (Milli Agentlik) tərəfindən maliyyələşdirilib.

Təlimin əsas məqsədi layihənin müxtəlif mərhələlərində əsas keyfiyyət aspektlərini artırmaq üçün gənclər mübadiləsinə müraciət edənlərə dəstək olmaqdır. Bu təlim kursunun yanaşması iştirakçılara real təcrübə əldə etməyə imkan vermək üçün giriş materialları və təcrübənin birləşməsinə əsaslanır: problemlərin həlli yollarını araşdırmaq, məsləhətləri bölüşmək və həqiqətən vacib olan suallarla məşğul olmaq. Erasmus+ Gənclər Mübadiləsinə gəldikdə, bir çox keyfiyyət meyarları var, təlim kursu müraciət edənlərin əksəriyyətinin üzləşdiyi müəyyən aspektlərə diqqət yetirir: gənclərin iştirakı, bərabər tərəfdaşlıq, qeyri-rəsmi öyrənmə aspektləri, mədəniyyətlərarası təlim, gənclər təcrübəsi prosesi, bütün layihəni uzunmüddətli təlim prosesi kimi görmək və s. mümkün risklərlə işləmək.

Təlim kursunda proqram ölkələrindən və Şərq Tərəfdaşlığı ölkələrindən 23 nəfər iştirak edib.

Aynur Rzayeva, an instructor of the Department of English Language and Literature, participated in a practical training course on the preparation of proposals for the Erasmus+ Youth Exchange projects in Vilnius, Lithuania, on September 3-8, The training course was designed for Youth workers, Youth leaders, and Youth project managers from EU partner countries and Eastern Partnership countries. The fully funded Erasmus+ program was financed by the Agency of Youth Affairs (National Agency).

The main aim of this training is to support youth exchange applicants to increase the main quality aspects in various phases of the project. The approach of this TC is based on a combination of inputs and practice to let participants put their hands on real experiences – explore problem-solving, share advice, and deal with issues that really matter. There are many quality criteria when it comes to the Erasmus+ Youth Exchanges, the training course concentrates on certain aspects that most applicants are struggling with: youth participation, equal partnership, dimension of non-formal learning, intercultural learning, Youthpass process, seeing the whole project as a long-term learning process and dealing with possible risks.

In the training course, 23 participants from the Program countries and Eastern Partnership countries attended successfully.

## TƏLƏBƏ MÜBADİLƏ İMKANLARI ÜZRƏ MƏLUMATLANDIRMA SESSİYASI

## INFORMATION SESSION ON STUDENT EXCHANGE OPPORTUNITIES





*Vlad Vernygora*

Sentyabrın 21-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisi tələbələr üçün Erasmus+ Tələbə Mübadilə Proqramı və ikitərəfli müqavilələrə əsaslanan mübadilə üzrə məlumatlandırma sessiyası keçirdi. Sessiyada universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva tələbələrə ətraflı məlumat verdilər.

Sessiyada, həmçinin, 2022-2023-cü tədris ilinin yaz semestrində mübadilə proqramında iştirak etmiş tələbələr – Təbiət elmləri və mühəndislik fakültəsinin dördüncü kurs tələbəsi Seymur Mirzəliyev (İtaliyanın Tuscia Universiteti (UNITUS) və İqtisadiyyat və menecment fakültəsinin ikinci kurs tələbəsi Əzizə Mustafayeva (İspaniyanın San-Antonio Mursiya Katolik Universiteti) iştirak etdilər və Erasmus təcrübələri haqqında təqdimat paylaşdılar.

On September 21, the International Relations Office of Khazar University held an information session for students on Erasmus+ Student Exchange Program and exchange based on bilateral agreements. In the session, Vlad Vernygora, vice-rector for International Relations of the university, and Fatima Valiyeva, coordinator of the International Relations Office, gave detailed information to the students. The session was attended by students who participated in the exchange program in the spring semester of the 2022-2023 academic year - Seymur Mirzaliyev, a fourth-year student of the School of Science and Engineering (University of Tuscia, Italy) and Aziza Mustafayeva, a second-year student of the School of Economics and Management (Spain's San Antonio Murcia Catholic University) participated and shared a presentation about their Erasmus experiences. In the end, students' questions were answered.




*Seymur Mirzəliyev*




*Əzizə Mustafayeva*

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI VİLNÜS GEDİMİNAS TEXNİKİ UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT VILNIUS GEDIMINAS TECHNICAL UNIVERSITY

Sentyabrın 25-27-də Xəzər Universitetinin əməkdaşları - İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Bahadır Baysal, Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova, Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Bayram Quliyev və Kəmalə Mustafayeva ERASMUS+ PICASP layihəsi çərçivəsində Vilnüs Gediminas Texniki Universitetində olublar.

PICASP layihəsinin (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən təcrübə müəssisələri pilot kursları) əsas məqsədləri təcrübə müəssisəsi ilə yeni tədris metodları hazırlamaq, sahibkarlıq və KOB-ların idarə edilməsi üzrə kurslar təşkil etmək, Avropa İttifaqı tərəfdaşları ilə təcrübə mübadiləsini artırmaq və maraqlı tərəflərin kurikulumların hazırlanmasında və məzunların məşğulluğunda iştirakını təmin etməkdir.

Xəzər Universitetinin əməkdaşları "Turizmdə təməlqoyma texnologiyaları", "Turizm trendləri: Turizm sənayesi üçün ən son imkanlar", "Litva irsinin qorunması sisteminə baxış", "Litva yəhudilərinin tarixi- mədəni irsi və tarixi", "Litvada virtual turizmin tətbiqi imkanları" mövzularında ardıcıl davam edən təqdimatlarda iştirak ediblər. Onlar, həmçinin, Litva Hersoqlarının Sarayı, Gediminas Qala Qülləsi, Litva Milli Muzeyi, Vilnüs Qədim Şəhəri və Uzupis Respublikasına təşkil edilən ekskursiyada olublar.

Sonuncu gün təşkil olunan idarəetmə görüşündə Dr. Ceyhun Məmmədov Xəzər Universitetində layihə fəaliyyətlərinin həyata keçirilməsi və qarşıya qoyulan məqsədlərə uyğun görülən praktiki işlər və gələcəkdə reallaşdırılması düşünülən perspektivlər haqqında geniş məlumat vermişdir. Görüş cari nəticələrin, ehtiyacların, gözləntilərin və gələcək planların müzakirəsi ilə başa çatıb.

On September 25-27, Khazar University staff members – Dr.Jeyhun Mammadov, dean of the School of Economics and Management, Dr. Bahadir Baysal, coordinator of the Department of Economics and Management, Sabina Allahveranova, manager of the Career Center, Dr. Bayram Guliyev and Kamala Mustafayeva, lecturers of the Department of History and Archeology, visited Vilnius Gediminas Technical University as part of the ERASMUS+ PICASP project.

The main objectives of the PICASP ( Pilot Courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area) project are to develop new teaching methodologies with the Practice Enterprise, to develop courses on entrepreneurship and SME management, to enhance the exchange of best practices with European Union partners and to enforce the involving of stakeholders in the curriculum development and the employment of graduates.

Khazar University staff attended presentations on the following topics: "Groundbreaking technologies in tourism", "Tourism Trends: The Latest Opportunities for the Tourism Industry", "Overview of the Lithuanian heritage protection system", "History of Lithuanian Jews - cultural heritage and history", "Possibilities of applying virtual tourism in Lithuania". They also visited the Palace of the Grand Dukes of Lithuania, the Gediminas Castle Tower, the National Museum of Lithuania, the ancient city of Vilnius and the Uzupis Republic.

During the management meeting held on the last day, Dr. Jeyhun Mammadov gave detailed information about the implementation of the project activities at Khazar University and the practical work done in accordance with the goals set and the prospects for its implementation in the future. The meeting ended with a discussion of current results, needs, expectations and future plans.



*Yeganə Əhmədova, Dmitriy Dzhedirov, Alina Vinitskaya,Besarion Meshki, Hamlet İsaxanlı*

## DON DÖVLƏT TEXNİKİ UNİVERSİTETİ "XƏZƏR"DƏ

Oktyabrın 5-də Rusiyanın Don Dövlət Texniki Universitetinin nümayəndələri ilə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetindən təsisçi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Tərlan Orucova, Beynəlxalq əlaqələr ofisinin əməkdaşları Fatimə Vəliyeva və Arzu Bədəlova; Don Dövlət Texniki Universitetindən rektor Prof. Besarion Meshki, Beynəlxalq əlaqələr ofisinin rəhbəri Alina Vinitskaya, rektorun assitenti Dmitriy Dzhedirov, Beynəlxalq əməkdaşlıq üzrə mütəxəssis Yeganə Əhmədova iştirak etmişlər.

Görüş zamanı Alina Vinitskaya və Arzu Bədəlova tərəfindən universitetlərin təqdimatı edilmişdir. Görüşün müzakirə mövzusu qarşılıqlı əlaqələrin qurulması olmuş və qarşılıqlı anlaşma müqaviləsi imzalanmışdır.

Görüşün sonunda tərəflər bir-birinə hədiyyə təqdim etmişlər.

## DON STATE TECHNICAL UNIVERSITY AT KHAZAR UNIVERSITY

On October 5, 2023, a meeting was held with representatives of the Don State Technical University of Russia.

Prof. Acad. Hamlet Isakhanli, founder, chairman of the Board of Directors and Trustees of Khazar University, Assoc. Prof. Irada Khalilova, rector, Mahammad Nuriyev, vice-rector for Academic Affairs, Jeyhun Mammadov, dean of the School of Economics and Management, Fakhranda Efendiyeva, dean of the School of Science and Engineering, Tarlan Orujova, deputy dean of the School of Humanities, Education and Social Sciences, employees of the International Relations Office Fatima Valiyeva and Arzu Badalov, rector of Don State Technical University Prof. Besarion Meshki, head of the International Relations Office Alina Vinitskaya, assistant to the rector Dmitry Dzhedirov, International Cooperation Specialist Yegana Ahmadova attended the event.

Alina Vinitskaya and Arzu Badalova made presentations about their universities during the meeting. The subject of discussion of the meeting was the establishment of mutual relations and the agreement of mutual understanding was signed.

At the end of the meeting, the parties presented each other with gifts.



*İradə Xəlilova*



*İradə Xəlilova*



# DIRNA ADLI ERASMUS+ LAYİHƏSİNİN İLK İDARƏEDİCİ GÖRÜŞÜ

# THE FIRST MANAGEMENT MEETING OF THE ERASMUS+ PROJECT DIRNA

Oktyabrın 5-6 da Xəzər Universitetinin koordinatorluq etdiyi Azərbaycanda İnstitusional Repozitoriyalar (Elektron Arxivlər) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı – DIRNA adlı Erasmus+ layihəsinin ilk idarəedici görüşü keçirildi.

Xəzər Universitetində keçirilən görüşdə həm Azərbaycandan (Xəzər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti), həm də Avropadan (Jyvaskyla Universiteti-Finlandiya, L'Aquilla Universiteti – İtaliya, İzmir Yüksək Texnoloji İnstitutu (İYTE) – Türkiyə) olan tərəfdaş universitetlər iştirak etdi.

Tədbirin rəsmi açılış hissəsi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad Hamlet İsaxanlının giriş nitqi ilə başladı. Sonra universitetin rektoru Dos. İradə Xəlilova və Azərbaycan Milli ERASMUS+ ofisinin direktoru Pərviz Bağırov, Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktoru Tatyana Zaytseva, KİM-in İnformasiya texnologiyaları üzrə mütəxəssisi Şərif Xurşudov və digərləri çıxış etdilər.

Avropa Komissiyasının layihə koordinatoru Rosalba Nardelli görüşə onlayn qoşuldu və tərəfdaş universitetlərə uğurlar dilədi.

Tədbir zamanı tərəfdaş universitetlərin təqdimatları oldu.

İki günlük görüş müddətində layihə çərçivəsində nəzərdə tutulmuş işlərin planı, maliyyə məsələləri, hər bir tərəfdaş universitetin layihədəki rolu və cavabdeh olduğu işlər, potensial risk və onların həll olunması yolları müzakirə olundu.

On October 5-6, the first management meeting of the Erasmus+ project called DIRNA was held through the network of Institutional Repositories (Electronic Archives) in Azerbaijan coordinated by Khazar University.

Partner universities from Azerbaijan (Khazar University, Baku State University, Azerbaijan Technical University, Azerbaijan State Customs Academy, Ganja State University, Nakhchivan State University, Mingachevir State University, Lankaran State University) and Europe (Jyvaskyla University-Finland, L'aquilla University – Italy, Izmir Institute of High Technology (IYTE) – Türkiye) attended the meeting held at Khazar University.

The official opening part of the event began with the introductory speech of Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees. Then the rector of the university, Assoc. Prof. Irada Khalilova, and the director of the Azerbaijan National ERASMUS+ office, Parviz Bagirov, director of Khazar University Library Information Center (LIC) Tatyana Zaytseva, an expert on LIC Information Technologies Sharif Khurshudov delivered speeches.

European Commission project coordinator Rosalba Nardelli joined the meeting online and wished success to the partner universities.

The event covered presentations of partner universities as well. During the two-day meeting, the plan of work planned within the framework of the project, financial issues, the role and responsibility of each partner university in the project, potential risks and ways to solve them were discussed.




*Pərviz Bağırov*



*Tatyana Zaytseva*




*Şərif Xurşudov*







"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

## "AKADEMİK KAMAL TALIBZADƏ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Akademik Kamal Talıbzadə" kitabı çap edilib. Kitab "Sənətkarın elmi pasportu - 42" seriyasına uyğun olaraq hazırlanıb. Akademik Kamal Talıbzadənin anadan olmasının 100 illiyinə həsr olunan nəşr Ədəbiyyat İnstitutunun Elmi Şurasının 1 iyun 2023-cü il tarixli 3 saylı qərarı ilə işıq üzü görüb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Ədəbi-tənqidi fikrin patriarxı" başlıqlı ön sözündə görkəmli Azərbaycan tənqidçisi, akademik Kamal Talıbzadənin zəngin yaradıcılığını yüksək qiymətləndirib.

Kitabın tərtibçisi Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusiflidir. Redaktoru isə filologiya üzrə fəlsəfə doktoru Qürbət Mirzəzadədir.

Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin əməkdaşlarının hazırladığı kitabda akademik Kamal Talıbzadənin həyat və sənət yolundan bəhs olunur. Kitabda onun ömür yoluna aid müxtəlif fotolar da yer alıb.

"Elm və təhsil" nəşriyyatında çap edilən kitab 288 səhifədir. Nəşrin məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbovadır.

# AMEA-DA XALQ ŞAİRİ MƏMMƏD ARAZIN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANS



*Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Leyla Həsənova, Tuncay Abbasov, İsa Həbibbəyli, Tahirə Məmməd, Sara və Fərəh Abbasovalar*

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Xalq şairi Məmməd Arazın 90 illik yubileyinə həsr olunmuş "Milli təfəkkür və tarixi yaddaş şairi Məmməd Araz" konfransı keçirilib.

Konfransı giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq tədbirin Məmməd Arazın anadan olmasının 90 illik yubileyinə həsr edildiyini bildirib, şairin zəngin yaradıcılığından bəhs edib. Azərbaycanın milli istiqlal şairi Məmməd Arazın yubileylərinin daima ölkəmizdə yüksək səviyyədə qeyd edildiyini deyən İsa Həbibbəyli şairin yaradıcılığına hər zaman Ulu Öndər tərəfindən yüksək qiymət verildiyini diqqətə çatdırıb. Qeyd edib ki, yaradıcılığında əsasən Vətən, torpağa bağlılıq, vətəndaşlıq, vətənpərvərlik mövzularına müraciət edən şairin bir çox şeirləri bu gün də öz aktuallığını qoruyub saxlayır, dillər əzbəridir. Azərbaycan ədəbiyyatının böyük ustadlarından olan Məmməd Arazın sənəti, yaradıcılığı, əsərləri hər zaman yaşayacaq və müstəqil dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edəcək.

Məmməd Arazla dostluq münasibətlərindən, unudulmaz görüşlərindən söz açan Xalq şairi Sabir Rüstəmxanlı şairlə bağlı xatirələrini də bölüşüb.

Konfransda AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru professor İlham Məmmədli "Məmməd Arazın fəlsəfi dünyagörüşü barədə bir neçə söz", Xalq şairi Sabir Rüstəmxanlı "Vətən daşlarının vətən nəğməsi", tarix elmləri doktoru Eynulla Mədətli "Məmməd Araz poeziyasında milli təfəkkür, milli kimlik və tarixi yaddaş", professor Şahin Fazil "Məmməd Araza nəzirə - şeir", filologiya elmləri doktoru Vaqif Yusifli "Məmməd Arazın fəlsəfi lirikası", professor Tahirə Məmməd "Məmməd Araz yaradıcılığı epik şeir kontekstində", fəlsəfə elmləri doktoru Adil Əsədov "Üç dahinin üçüncüsü – Məmməd Araz", dosent Günay Qarayeva "Məmməd Araz poeziyasında yaddaş intertktuallığı" mövzusunda məruzələrlə çıxış ediblər.

Məruzələrdə Məmməd Araz yaradıcılığından, şəxsiyyətindən, fəlsəfi lirikasından, şairin poeziyasında milli təfəkkür, milli yaddaş, Vətənə, torpağa bağlılıq və digər mövzulardan söz açılıb, müzakirələr aparılıb. Qeyd edilib ki, Məmməd Arazın başlıca ilham mənbəyi tarixi minilliklərə söykənən və tarix səhnəsində həmişə öz sözü, mövqeyi olan Azərbaycandır.

Tədbirdə professor Rəfiqə Əzizova, filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova, Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi Aypara Abbasova, Nazim Muradov çıxış edərək Məmməd Arazın poeziyasından söz açıb, şeirlərini şərh ediblər.

Tədbirdə şairin ailə üzvləri Tuncay Abbasov, Leyla Həsənova, xalq şairi Bəxtiyar Vahabzadənin nəvəsi Bəxtiyar Vahabzadə də iştirak edib. Məmməd Arazın nəticələri Sara və Fərəh Abbasovalar şairin şeirlərini səsləndiriblər.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# NİZAMİ GƏNCƏLİ* - "LEYLİ VƏ MƏCNUN"

**Maqali Todua**

Professor, şərqşunas

(1927 - 2016 )

**Azərbaycan xalqının doğma övladı Nizami Gəncəlinin** kimliyi ilə bağlı elmdə çox mübahisə var: o kim idi, türk, yoxsa fars şairi? Məsələni qəlizləşdirən budur ki, Nizami şeirlərində bəzən işarələrlə, bəzən də açıq-aşkar əslən Qumdan (Qum İrandadır) olduğunu deyir. Sanki şair yaşadığı və vəfat etdiyi, beş şedevrini yaratdığı və məzarının bu günə qədər qorunub saxlandığı Gəncə şəhərini unudur. Fəqət Nizaminin fars olduğunu düşünənlər (onun Qumdan olduğunu əsas götürərək), zənnimizcə, bir şeyi unudurlar: şair əslən Qumdan ola bilərdi, ancaq milliyyətcə fars deyil, azərbaycanlıdır. Alimlərin mübahisəsini dahi şairin "Leyli və Məcnun" poemasının girişində verdiyi ikibaşlı bir məlumat da qızışdırır, - Nizami və onun müasiri Xaqani Şirvani (vəfatı.1199) sətiraltı mənalar verən deyimlərə çox meyilli idilər, - həmin müqəddimədə şair deyir: Şirvanşah bu poemanı sifariş verəndə mənə yazdı: "Biz türk deyilik..." Bəziləri düşünürlər ki, Şirvanşah I Axsitan (1160-1198) - bu poemanı türkcə yazma!- deyə, şairə xəbərdarlıq edib. Ancaq Nizami buna qədər artıq iki poema yazmışdı və bu poemaların hər ikisi fars dilində idi, türkcə heç nə yaratmamışdısa, I Axsitan nəyə əsaslanıb güman etməli idi ki, Nizami məhz bu poemasını türkcə yaza bilər?! Bu məntiqə əsaslanıb fikrimizi davam etsək belə çıxır ki, dahi şairin bizə qəlib çatmayan türk dilində yazdığı şeirləri də olub. Alimlərin ikinci qisminin fikrincə, I Axsitan bunu deyərkən şərqdə dillər əzbəri olan bir rəfayəti nəzərdə tutur. Həmin rəvayətə görə, türk sultan Mahmud (999-1030) öz müasiri olan dahi Firdovsiyə "Şahnamə" əsərinə görə böyük bir mükafat vəd edib, ancaq əsər başa çatanda, verdiyi sözə əməl eləməyib, (bunun səbəbi ya xəsislik olub, ya da, güman ki, poemanın ideyası sultanı qane etməyib).

Hər necə olursa olsun, Nizaminin yaradıcılığı həm də fars ədəbiyyatının üzvi bir hissəsidir, çünki qəbul olunmuş ümumi bir qaydaya görə yazıçı bədii əsərlərini dilində yazdığı millətin ədəbiyyatına da məxsusdur. Nizami o dövrdə Yaxın Şərq ədəbiyyatında hakim dil olan fars dilində yazırdı. "Məxsusdur" sözü, əslində, burada heç bir məna kəsb etmir, çünki məxsusiyyətə gəldikdə, qeyd etməliyik ki, **heç kim dünya ədəbiyyatının bu dahi təmsilçisinin öncə Azərbaycan xalqına, sonra isə bütün bəşəriyyətə məxsus olduğuna şübhə etməməlidir. Təbii ki, Gəncə əsilli Nizami bu millətin və onun mədəniyyətinin qürur mənbəyidir, bu xalq isə - Nizami yaradıcılığının hamisi, dəyərləndiricisi və sahibidir.** Nizami Azərbaycan xalqının nə ögey övladı, nə də ki oğulluğudur.

**Nizamini Azərbaycansız və yaxud Azərbaycanı Nizamisiz təsəvvür etmək haqsızlıq olardı. Unutmamalıyıq ki, Nizami Azərbaycanın ədəbi rəmzidir.** Azərbaycanlılar onun şah əsərlərini orijinalda deyil, tərcümədə oxumalarına və sevmələrinə rəğmən, Nizami Azərbaycan xalqının

*- "Gəncəli" sözünü müəllif yazdığı kimi saxlamışıq - *tərcüməçi*

**mənəvi atası, onun yaradıcılığı isə bu millətin ideyalarının oriyentiridir.**

Bizim əcdadlarımız orta əsrlərdə fars poeziyasının şedevrlərini intensiv sürətdə tərcümə edirdilər, lakin iş elə gətirib ki, Nizaminin poemalarını tərcümə etməyiblər (bunun öz səbəbləri var və bu ayrı bir söhbətin mövzusudur). Gürcü dilində olan "Leyli-Məcnun" "Xosrov-Şirin" və ya "Yeddi gözəl" Nizaminin poemalarının tərcüməsi deyil, əslində onlara yazılan nəzirələrdir (onun əsərlərinə həm fars, həm də türk ədəbiyyatında çoxlu nəzirələr yazıldı), belə ki, gürcü dilində mövcud olan həmin mətnlər bu ölməz əsərləri gürcüləşdirmək cəhdindən başqa bir şey deyil.

Bu dahi şairin buradaca, necə deyərlər, qulağımızın dibində, Gəncədə yaşamasına, "Xosrov və Şirin" poemasında dediyinə görə özəl mülkünün Gürcüstanın yaxınlığında yerləşməsinə rəğmən, Nizaminin külliyyatını gürcü dilinə çevirməyə son zamanlar başlamışıq. Nizami Gəncəli lirik şeirlərindən əlavə (qəzəllər), dünya ədəbiyyatına beş şah əsər bəxş etdi: "Sirlər xəzinəsi" (1179-cu il), "Xosrov və Şirin" (1181-ci il), "Leyli və Məcnun" (1188-ci il), "Yeddi gözəl" (1197-ci il) və "İsgəndərnamə" (1200-cü il).

"Leyli və Məcnun"-u da digər poemaları kimi Nizami sifarişlə yazıb. Bu işə, əsərin girişində də deyildiyi kimi, həvəssiz başlayıb - qələmə alacağı rəvayət onu valeh etmirdi. O özü bu barədə belə yazır: Leyli və Məcnun əhvalatı yaxşı bəllidir, amma neynəyəsən ki, cazibəsi yoxdur. Şeirin dadı onun cəlbediciliyindədir... Bu hekayətdə çəmənlər duyulmur, sanki oradakı mənzərə canlı deyil, şahlar ziyafət məclisləri qurmur, musiqi səsləndirib şərab içmirlər. Susuz səhraları və sıldırım qayaları nə qədər nəzmə çəkmək olar?!" Buna baxmayaraq, Nizami yenə də yazmağa başlayır və onu birnəfəsə bitirir – dünya poeziyasının şah əsəri və müəllifinin şöhrət tacı olan "Leyli və Məcnun" poemasını dörd aya yaradır. **1188-ci il, yəni həmin əsərin başa çatdığı il, dünya ədəbiyyatının əlamətdar tarixlərindəndir.** Və bu poema Şirvanşahın istəyi ilə yazılsa da, ona bu təşəbbüsün doğru zamanda verildiyini düşünməli və ilham pərisi ilə yanaşı taleyin ona bəxş etdiyinə də inanmalıyıq.

I Axsitanın istəyində qeyri-adi bir şey yoxdur. Leyli və Məcnunun məhəbbət rəvayətləri o dövrdə İslam dünyasında geniş yayılmışdı. Onların nakam sevgilərinin hekayətləri və adlarına yazılan, yaxud həqiqətən sevgililərin özləri tərəfindən yaradılan şeirlər həm bədəvi şifahi ədəbiyyatında, həm də yazılı ədəbiyyatda çoxdan öz əksini tapmışdır. İbn Quteybə (9-cu əsr), Əbu əl-Fərəc (10-cu əsr) və Əbu Bəkr əl-Vəlid (11-ci əsr) həmin şeirləri öz kitablarına daxil etmişdilər, lakin Nizaminin bizə bildirdiyi kimi, yuxarıda qeyd etdiyimiz səbəbdən bu hekayəti əvvəllər heç kim nəzmə çəkməmişdi. (Hər halda, bu qəmli əhvalata heç kəsin meyil göstərmədiyini, heç kimin qol qoymadığını Nizami bununla izah edir).

Leyli və Məcnuna aid edilən çoxsaylı rəvayətlərə və sevənlərin özlərinin yazdığı iddia edilən, bu günə qədər qorunan şeirlərə görə, hekayətin aşağıdakı sxemi qurula bilər: Leyli və Məcnun gənc yaşlarından bir-birlərinə aşiq olurlar, ancaq onların saf məhəbbəti müqavimətlə qarşılaşır. Bəxti gətirməyən sevgililər bir-birinə şeir ithaf etməkdə təsəlli tapırlar. Sanki, bir ara onlara dəstək verən adam da tapılır, lakin onların sevgisi nakamdır, sevənlər murada çata bilmir, qovuşmaq cəhdləri boşa çıxır. Eşq əlindən dəli-divanə olan Məcnun baş götürüb səhraya qaçır, Leylini isə başqa bir kişiyə ərə verirlər. Leyli bu dərdə tab gətirə bilmir, ölür. Acı hadisənin şahidi olan Məcnun da həlak olur.

Bu fabulada cismani sevgiyə yad bir şey yoxdur, amma buna rəğmən, erkən rəvayətlərin böyük qismi və Nizaminin bunlara əsaslanan poeması, qeyri-cismani, platonik sevginin apologiyasıdır, elə bir məhəbbətin himnidir ki, o məhəbbət fani dünyada bərqərar ola bilməz. Belə məhəbbətin təntənəsi üçün aşiq öz canından keçməlidir. Bu cür məhəbbətə düçar olanlar üçün bu sonluq qaçılmazdır.

Təsəvvüf dünyagörüşü və Şərq neoplatonizmi Nizami dövrünə qədər İslam şeirində çoxdan kök salmışdı. Bu cür sevgi konsepsiyası XI əsrdən XX əsrə qədər demək olar ki, sevgi mövzusunda yazılan bütün nəzm əsərlərində və lirik şeirlərində qırmızı xətt kimi keçir. Bu poemaların qəhrəmanları ondan zorən qoparılan, əlləri uzalı qalan sevdiyini axtarmaq əvəzinə səhraya çəkilib, orada ahu-zar edərək, sanki, bu sevgiyə yas tuturlar. Bir-birindən ayrılan Leyliylə Məcnuna bir dəfə, cəmi bircə dəfə fürsət verilir ki, xəlvət bir yerdə görüşsünlər, lakin onlar bu vüsaldan faydalanmırlar, əksinə, Leyli neçə zamandır həsrətini çəkdiyi Məcnunu görəndə, ehtirasını cilovlayaraq həmin görüşü təşkil edən adama deyir: "Mən Məcnuna bundan artıq yaxınlaşa bilmərəm, "sevənlərin arasında sədd var, o sədd qorunmalıdır".

Nizaminin təşbeh və metaforalarla zəngin poemalarını anlamaq əksər hallarda çox çətindir. "Leyli

və Məcnun" əlbəttə ki, istisna deyil. Əksinə, həmin əsərin bəzi hissələri hətta mütəxəssislərə belə tam aydın deyil, ya da anlayışları mübahisəlidir. Nizaminin əsərləri elit fars şeirini, tarixini, varlığını məcazi mənalarla anlaya biləcək, bəzən müxtəlif elm sahələrinə bələd olan oxucular üçün nəzərdə tutulmuşdur. Bəlkə də bu səbəbdəndir ki, şərqdə sıradan oxucular bu poemaların özlərindən daha çox onları təqlid edənləri oxumağa daha meyillidirlər .

Mənim bu sözlərim - Nizaminin poemalarının oxucusu az olub və ya hazırda azdır - kimi başa düşülməməlidir. Əksinə, Azərbaycanın və İranın geniş intellektual dünyasının olmasına o da dəlalət edir ki, məşhur İran filoloqu Əhməd Monzainin yeddi cildlik əsərində ("Fars əlyazmalarının kataloqu") müxtəlif muzeylərdə, əlyazma fondlarında və şəxsi kolleksiyalarda bu dahi şairin ölməz əsərlərinin 113 çeşidli əlyazmasının qorunub saxlanılması göstərilir. Lakin qeyd etməliyik ki, bu rəqəm də tam reallığı əks etdirmir, çünki Əhməd Monzainin siyahısı heç də bütün fondları və şəxsi kolleksiyaları əhatə etmir.

Nizaminin poemaları öz dövründə qeyri-adi şöhrət qazandı. Fars və türk dillərində, o cümlədən Azərbaycan ədəbiyyatında onlara nəzirə yazan çoxlu təqlidçilər meydana çıxdı. Mütəxəssislər bu cür məlumatlara öyrəşiblər: fars dilində "Leyli və Məcnun"a yazılmış əllidən çox nəzirəmiz var. Bu rəqəm əsl reallığı əks etdirmir. Belə bir istinad bizə vaxtilə tez-tez yazılan bir məlumatı xatırladır: Finlandiyada min göl var və ona bu səbəbdən min göl ölkəsi deyilirdi (bir ölkədə bu qədər gölün olması qeyri-adi və təsiredici bir hadisə kimi qəbul edilirdi). Ancaq saydıqda bu ölkədə altmış mindən çox göl olduğu aşkar edildi. Şübhə etmirik ki, "Leyli və Məcnun"a yazılan nəzirələrin sayı, diqqətlə araşdırılsa, göstəriləndən, ən azı, beş dəfə çox olacaq.

Biz isə əvvəlki fikrimizə qayıdaq:

Nizamini anlamaq, təbii ki, onun əsərlərinin tərcüməçiləri üçün də çətindir. Onların qarşısına çıxan əsas əngəl Nizaminin olduqca mürəkkəb metaforalarını olduğu kimi çatdırmaqdır. Bu metaforalar açılmasa, xarici oxucu onları çətin başa düşər, açılanda isə Nizaminin şeiri solur. Biz Öz tərcüməmizdə (*Maqali Toduanın gürcü dilinə orijinaldan çevirdiyi Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması nəzərdə tutulur*-İ.M.) orta yolu seçmişik, bəzən bu metaforaları açırıq, bəzən - yox. Bəzən metafora ilə birlikdə şeirdə onun izahını da veririk. Bu metodu Nizaminin özündən öyrənmişik. Yəqin ki, oxucunun başa düşə bilməyəcəyini nəzərə alıb, ara-sıra mürəkkəb metaforaların izahını özü verir.

Tərcüməçiləri Nizami beytinin daha iki xüsusiyyəti çətin əngələ salır: bir sözü müxtəlif kontekstlərdə təkrarlama meyli və omonimlərin çoxluğu. Nizami, klassik dövrün bütün Şərq şairləri kimi, poetik boyalardan istifadə edərkən çox səxavətlidir. Bugünün baxış bucağından yanaşsaq, onun hiperbolları ifrat dərəcəsində, personajlarının duyğu və emosiyaları isə çox atəşli görünə bilər. Poetik qaydaların inkişafının öz qanunauyğunluğu var və burada hər hansı yenilənmə prosesi müəyyən səbəblərə əsaslanır. Biz şərqşünaslar isə praqmatistlərin ünvanına deyirik: bugünkü naturalist "gerçəkliyə" alışan yoldaşlar, deyəsən, özlərini həddindən artıq "ağıllı" bilirlər. bəlkə beləleri düşünürlər ki, Rustaveli və onun dövrünün oxucuları o dərəcədə sadəlöhv idilər ki, Nestan Darecanın axıtdığı gözyaşları ilə, doğrudan da, göl yarada biləcəyinə inanırdılar. Bilməliyik ki, hiperbolların bolluğu, duyğu və emosiyaların son dərəcə coşqun və atəşli olması dövrün poetic tələblərindən irəli gəlirdi.



*Gürcü dilindən tərcümə edəni*
**İmir Məmmədli**

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "CHAOS, SOLITONS & FRACTALS" JURNALINDA




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "Fractional Dirac system with impulsive conditions" ("İmpulsiv şərtləri olan fraksiyalı Dirak sistemi") adlı birgə məqaləsi "Chaos, Solitons & Fractals" jurnalında (2023, Cild 176, 114099) dərc edilmişdur. Qeyd edək ki, "Chaos, Solitons & Fractals" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indeksləşdirilib.

Məqalədə impulsiv şərtləri olan fraksiyalı Dirak sistemləri tətqiq edilir və onların əsas xassələri araşdırılır. Bu kontekstdə sistemin simmetrikliyi, məxsusi qiymətləri və məxsusi funksiyaları tədqiq edilir, sonra isə bu sistemin həllərinin mövcudluğu və yeganəliyi isbat olunur. Məqalənin sonunda bu sistemin xarakteristik funksiyası qurulur.

## JOINT ARTICLE OF PROFESSORS OF THE DEPARTMENT OF MATHEMATICS IN THE JOURNAL" CHAOS, SOLITONS & FRACTALS"

A joint article by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, professor of the Department of Mathematics, and Bilandar Allahverdiyev, professor of the same department, entitled "Fractional Dirac system with impulsive conditions" was published in the journal "Chaos, Solitons & Fractals" (2023, Vol.176, 114099). Note that the journal "Chaos, Solitons & Fractals" is indexed in the databases "Web of Science" and "Scopus".

In this article, fractional Dirac systems are considered under impulsive conditions and their basic properties are investigated. In this context, the symmetry, eigenvalues, and eigenfunctions of the system were examined and then the existence and uniqueness of the solutions of the system were proved. Finally, the characteristic function of the system is shown.

*https://www.sciencedirect.com/science/article/abs/pii/S0960077923010007*
*https://www.sciencedirect.com/journal/chaos-solitons-and-fractals*




## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "DİFFERENTİAL EQUATIONS" JURNALINDA
## ARTICLE BY PROFESSOR OF THE DEPARTMENT OF MATHEMATICS IN "DIFFERENTIAL EQUATIONS" JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Nazim Kərimovun "On the spectral properties of high-order differential operators with periodic boundary conditions" (" Periodik sərhəd şərtli yüksək tərtib diferensial operatorların spektral xassələri" ) adlı məqaləsi "Differential Equations " jurnalında (2023, Cild 59, № 3, s. 312-331) dərc edilmişdur. Qeyd edək ki, "Differential Equations" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indeksləşdirilib.

Məqalədə diferensial operatorun məxsusi ədədlər çoxluğunun və kök funksiyalar sisteminin spectral xassələri tədqiq edilir.

Khazar University Mathematics Department professor Nazim Karimov's article entitled "On the spectral properties of high-order differential operators with periodic boundary conditions" was published in "Differential Equations" journal (2023, Vol. 59, No. 3, pp. 312-331). Note that "Differential Equations" magazine is indexed in "Web of Science" and "Scopus" databases.

The present paper deals with the spectral properties of the set of eigenvalues and the system of root functions for the differential operator.

*https://doi.org/10.1134/S0012266123030035*

## XI`AN TEXNOLOGİYA UNİVERSİTETİNİN ELMİ İŞÇİSİ XƏZƏR UNİVERSİTETİNİN NANOTEXNOLOGİYA LABORATORİYASINDA

## RESEARCHER OF XI'AN UNIVERSITY OF TECHNOLOGY VISITS NANOTECHNOLOGY LABORATORY OF KHAZAR UNIVERSITY

Oktyabrın 6-da Çinin Xi'an Texnologiya Universitetinin (XUT) tədqiqatçısı Dr. Guo MengFei nanotexnologiya sahəsinin inkişafı çərçivəsində Xəzər Universitetinin Nanotexnologiya laboratoriyasına gəlib, yerli tətqiqatçılarla görüşmüşdür. Səfər zamanı Dr. Quo MenqFei birgə tədqiqat təşəbbüsləri və tədqiqatçı mübadilə proqramları üzrə potensial əməkdaşlıqlar haqqında müzakirələr aparmışdır.

Dr. Quo MenqFei`nin səfəri nanotexnologiya və aerokosmik mühəndislik sahəsində beynəlxalq əməkdaşlığın artan əhəmiyyətinin sübutudur. Çinin iqtisadi və sosial inkişafının ehtiyaclarını ödəmək öhdəliyi ilə tanınan XUT öz tələbələri arasında yaradıcı intellekti, nəzəri bilik və praktiki bacarıqları inkişaf etdirmək sahəsində zəngin ənənəyə malikdir. Bununla yanaşı, beynəlxalq təhsil əməkdaşlığı və mübadilə imkanlarını da fəal şəkildə araşdırır. Universitet ingilis və çin dillərində ikidilli tədris metodlarından istifadə edir.

Xəzər Universitetindəki görüş nanotexnologiya tədqiqatlarında qlobal tərəfdaşlığın gücləndirilməsi sahəsində daha bir addım oldu.

In an exciting development for the field of nanotechnology, Dr. Guo MengFei, a researcher and associate professor from Xi'an University of Technology (XUT), China, paid a visit to the Nanotechnology Laboratory at Khazar University on 6th October. During this visit, Dr. Guo MengFei engaged in discussions about potential collaborations on joint research initiatives and researcher and student exchange programs.

Dr. Guo MengFei's visit is a testament to the growing importance of international cooperation in the field of nanotechnology and aerospace engineering for Khazar University. XUT, renowned for its commitment to meeting the needs of China's economic and social development, has a strong tradition of fostering creative intellects and cultivating theoretical knowledge and practical skills among its students. In addition, XUT has been actively exploring international education cooperation and exchange opportunities, aiming to provide students with diversified education and training experiences. Moreover, the university has been promoting bilingual teaching methods in English and Chinese to further internationalize talent development.

This visit marks a significant step towards strengthening global partnerships in nanotechnology research and advancing the field's frontiers.

# DAAD-IN XƏZƏR UNİVERSİTETİNDƏ TƏQDİMATI
# DAAD PRESENTATION AT KHAZAR UNIVERSITY



*Gebhard Reul*



Oktyabrın 10-da DAAD Azərbaycan -Tbilisi regional ofisinin rəhbəri Gebhard Reul və proqram koordinatoru Sevər Qarayeva tərəfindən Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin dəstəyi ilə tələbələr üçün məlumat sessiyası keçirdi.

Görüşdə Azərbaycan vətəndaşları üçün DAAD-




*Sevər Qarayeva*

ın magistratura və doktorantura təqaüdləri, habelə, yay dil kursları haqqında məlumat verildi. DAAD nümayəndələri tərəfindən sonda tələbələrin təqaüd üçün müraciət qaydaları, tələb olunan sənədlər, eləcə də, son müraciət tarixləri ilə bağlı sualları cavablandırıldı.

Qeyd edək ki, DAAD dünyada tələbə və tədqiqatçıların maliyyələşdirilməsi ilə bağlı ən böyük təşkilatlardan biridir. DAAD-ın Azərbaycanda ən böyük hədəflərindən biri beynəlxalq tələbə və tədqiqatçı mübadiləsini artırmaq və informasiya prosesini gücləndirməkdir.

On October 10, DAAD Azerbaijan-Tbilisi regional office head Gebhard Reul and program coordinator Sever Karaeva held an information session for students with the support of the International Relations Department at Khazar University.

At the meeting, information was given about DAAD master's and doctoral scholarships, as well as summer language courses for Azerbaijani citizens. DAAD representatives answered the students ' questions about the scholarship application rules, required documents, as well as the deadline for application.

Note that DAAD is one of the largest organizations in the world for financing students and researchers. One of DAAD's biggest goals in Azerbaijan is to increase the international exchange of students and researchers and strengthen the information process.



# ÇİN İCTİMAİ ELMLƏR AKADEMİYASI İNSTİTUTLARININ ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ



*Zhang Yuyan* *Hamlet İsaxanlı*

Oktyabrın 12-də Xəzər Universitetində Çin İctimai Elmlər Akademiyasının Dünya İqtisadiyyatı və Siyasəti İnstitutu və Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun əməkdaşları ilə görüş keçirildi.

Görüşdə Dünya İqtisadiyyatı və Siyasəti İnstitutunun baş eksperti Zhang Yuyan, baş elmi işçisi Pang Dapeng, Beynəlxalq siyasi nəzəriyyə - tədqiqat şöbəsinin müdiri, baş elmi işçi Xu Xuijun, institutun

# MEETING WITH THE STAFF OF INSTITUTES OF THE CHINESE ACADEMY OF SOCIAL SCIENCES

On October 12, a meeting was held with the staff of the Institute of World Economy and Politics of the Chinese Academy of Social Sciences and the Institute of Russian, Eastern European and Central Asian Studies at Khazar University.

Zhang Yuyan, senior expert of the Institute of World Economy and Politics, and senior researcher of the institute Pang Dapeng, head of the International



Tədbiri giriş sözü ilə açan Milana Abbasova departament haqqında qısa məlumat verib. Elvin Abbasbəyli "Tərcümə mərkəzi"nin yaradılma səbəbi və gələcək planları haqqında danışıb. Sonra çıxış edən Şahbaz Xuduoğlu "Qanun" nəşriyyatının yaradılmasından, tərcüməçi peşəsindən, eləcə də nəşr sahəsi ilə bağlı redaktor və korrektor işinin xüsusiyyətlərindən bəhs edib. Tərcüməçinin kitabın ikinci müəllifi olduğunu və buna görə də işinə məsuliyyətlə yanaşmasının zəruriliyini qeyd edən naşir daha sonra tələbələrin suallarını cavablandırıb.

Görüşdən sonra Xəzər Universitetinin "Qanun" nəşriyyatı ilə gələcək əməkdaşlığı müzakirə edilib.



On October 13, a meeting was organized between students and lecturers of the Department of English Language and Literature at Khazar University with the director of "Qanun" Publishing House Shahbaz Khuduoghlu. The event took place on the initiative of Elvin Abbasbayli, coordinator of the newly established "Translation Center" of Khazar University, and with the support of Milana Abbasova, head of the Department of English Language and Literature.

Opening the event with an introductory speech, Milana Abbasova briefed about the Department. Elvin Abbasbeyli talked about the reason for establishing the Translation Center and its future plans. Then Shahbaz Khuduoghlu spoke about the establishment of "Qanun" Publishing House, the profession of a translator, as well as the features of the work of an editor and proofreader in the publishing industry. The publisher answered the students' questions noting that the translator is the second author of the book and therefore needs to approach their work responsibly.

After the meeting, issues of further cooperation between Khazar University and "Qanun" Publishing House were discussed.





# V MƏMMƏD ARAZ POEZİYA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

# EVENT DEDICATED TO V MAMMAD ARAZ POETRY DAY

Məmməd Arazın 90 illiyi ilə əlaqədar 2023-cü il oktyabr ayının 14-də I Fəxri Xiyabanda Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə tədbir keçirilib. V Məmməd Araz Poeziya günü çərçivəsində keçirilən tədbirdə Xəzər Universitetinin tələbələri, ədiblər, jurnalistlər, xalq şairinin ailə üzvləri və qohumları iştirak edib. Yeni formatda düzənlənən tədbir öncəsi Xəzər Universiteti tələbələrindən ibarət bir qrup Elmlər Akademiyası metrosu qarşısından başlamaqla Fəxri Xiyabanadək şairin "Nə bilim", "Dünya sənin, dünya mənim..." mahnılarını oxuyaraq, ustad sənətkarın məzarını ziyarətə gəlib. Sonra universitetin İbtidai sinif müəllimliyi I kurs tələbələri Şəms Cavadova ("Ayağa dur, Azərbaycan!"), Fidan Quliyeva ("Ömür"), Əsiyyət Severxanova ("Məndən ötdü, qardaşıma dəydi"), Aydan Zahirova, Ayişə Sadıqova, Simuzər İskəndərzadə, Səbinə İsrayılova, Aytac Quluzadə, Xədicə Hüseynova, Telli Yaqubova, Leyla Bayramova, Məleykə Qürbətli, Aysun Müseyibova, Fəridə Abdullazadə, Aytac Quluzadə və Sonya Babayeva şairin məzarı önündə şeirlərindən və sözlərinə yazılmış mahnılardan

On the occasion of the 90th birthday of Mammad Araz, an event was held on October 14, in the First Alley of Honor organized by the Department of Languages and Literatures of Khazar University. Khazar University students, writers, journalists, family members and relatives of the people's poet attended the event held as part of V Mammad Araz Poetry Day. Before the event organized in a new format, a group of Khazar University students came to visit the grave of the great port, singing his songs " I don't know", "The World is Yours, The World is Mine" from the front of the Elmler Akademiyasi metro station to Alley of Honor. Then the first year students of the university majoring in primary school teaching Shams Javadova ("Come on, Rise Up, Azerbaijan!"), Fidan Guliyeva ("Life") Asiyat Severkhanova ( "He walked past me and hit my brother") Aydan Zahirova, Ayisha Sadygova, Simuzer Iskanderzade, Sabina Israyilova, Aytaj Guluzade, Khadija Huseynova, Telli Yagubova, Leyla Bayramova, Maleyka Gurbatli, Aysun Museyibova, Farida Abdullazade, Aytaj Guluzade and Sonya Babayeva presented a composition of the poems and songs of the poet in front of his

ibarət kompozisiya təqdim ediblər.

Tədbirə moderatorluq edən "Məmməd Araz Poeziya günü" layihəsinin rəhbəri, universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlı Vətən şairinin yaradıcılığının əsas qayəsini yurdun azadlığı, müstəqilliyi və bölünməzliyi ideyasının, Bütöv Azərbaycan idealının təşkil etdiyini xüsusi vurğulayıb. O, tədbirlərin ilin sonunadək davam edəcəyini söyləyib.

Şair Ağacəfər Həsənli, "Ədalət" qəzetinin Baş redaktor müavini Əbülfət Mədətoğlu, iqtisadçı İsa Məmmədov, Xalq şairinin yaxın qohumu Rəşid Məmmədov çıxışlarında onunla bağlı xatirələrini danışıb, unudulmaz ədibin poeziyasına öz sevgilərini izhar ediblər. Ölməz sənətkarın qızı Şəlalə İbrahimova tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

grave.

Moderating the event, the head of the project "Mammad Araz Poetry Day", the lecturer of the Department of Languages and Literature of the University Gardashkhan Azizkhanli emphasized that the main basis of the creativity of the poet is the idea of freedom, independence and indivisibility of the country, the ideal of a whole Azerbaijan. He said that the events will continue until the end of the year.

Poet Aghajafar Hasanli, deputy editor-in-chief of" Adalat " newspaper Abulfat Madatoghlu, economist Isa Mammadov, a close relative of the people's poet Rashid Mammadov spoke about his memories and expressed their love for the poetry of the unforgettable writer. Shalala Ibrahimova, the daughter of the immortal poet, expressed her gratitude to the organizers and participants of the event.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ TÜRKİYƏ XARİCİ SİYASƏTİNİN 500 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD AT THE EVENT DEDICATED TO THE 500TH ANNIVERSARY OF TÜRKIYE'S FOREIGN POLICY

Oktyabrın 16-da AMEA- da Türkiyə xarici siyasətinin 500 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

AMEA Rəyasət Heyətinin binasında keçirilən tədbirdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, AMEA prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatları, diplomatlar və alimlər iştirak edib.

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Türkiyə Xarici İşlər Nazirliyinin nəzdindəki Diplomatiya Akademiyasının rektoru Prof.Dr. Məsut Özcan, ADA Universitetinin prorektoru Dr. Fariz İmayılzadə və millət vəkili Prof. Musa Qasımlının əsas panelist olduğu panelə moderatorluq etmiş, çıxışında Osmanlı dövlətinin Azərbaycanla diplomatik münasibətlərinin təfərruatlarına dair konfrans iştirakçılarına geniş məlumat vermişdir.

On October 16, an event dedicated to the 500th anniversary of Türkiye's foreign policy was held at ANAS.

Ambassador Extraordinary and Plenipotentiary of Türkiye to Azerbaijan Cahit Bagci, President of ANAS Isa Habibbeyli, deputies of Milli Majlis, diplomats and scientists attended the event held in the building of ANAS Presidium.

Telman Nusratoghlu, head of the Department of History and Archeology of Khazar University, moderated the panel, where Prof.Dr. Masut Ozcan, rector of the Diplomatic Academy under the Ministry of Foreign Affairs of Türkiye, Dr. Fariz Imayilzade, vice-rector of ADA University and Musa Gasimli, MP, were the main panelists, and informed the conference participants about the details of the diplomatic relations of the Ottoman Empire with Azerbaijan.



# ŞİRVANŞAHLAR SARAY KOMPLEKSİNDƏ DƏRS

# LESSON AT SHIRVANSHAHS PALACE COMPLEX

Oktyabrın 17-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə birinci kurs tələbələri üçün "Arxeologiya və etnoqrafiyanın əsasları" fənni üzrə növbəti dərs Şirvanşahlar saray kompleksində təşkil olunmuşdur. Tələbələr kompleksin ekspozisiyası və ərazisində açıq havada nümayiş etdirilən "Bayıl daşları" eksponatları ilə tanış olmuşlar.

Tələbələrə Azərbaycanın orta əsrlər maddi-mədəni irsinin əyani tədrisi məqsədilə təşkil olunmuş təlim-dərsdə milli memarlıq irsinin təşəkkülü və öyrənilməsi, aşkara çıxarılmış eksponatlar və tikili qalıqları, Şirvanşahlar dövləti, onun tarixi, fəaliyyəti, saray həyatı, sarayın memarlığı, orta əsr etnoqrafiyası, aparılan tədqiqatlar, həmçinin, "Bayıl daşları" barədə geniş məlumat verilmişdir.

Böyük maraqla qarşılanan ekskursiya-dərs tələbələrin suallarının cavablandırılması və müzakirələrlə yekunlaşmışdır.

On October 17, the next lesson on "Basics of Archeology and Ethnography" for first-year students was organized in the Shirvanshahs Palace Complex by Khazar University History and Archeology Department lecturer Orkhan Zamanov. The students got acquainted with the "Bayil stones" exhibits, which were displayed outdoors in the complex's exposition and territory.

The students were informed about the formation and study of the National Architectural Heritage, the discovered exhibits and building remains, the state of the Shirvanshahs, its history, activities, palace life, palace architecture, medieval ethnography, researches, as well as "Bayil stones" in the training-lesson organized for the purpose of visual teaching of the medieval material and cultural heritage of Azerbaijan.

The excursion-lesson, which was met with great interest, ended with answers to students questions and discussions.

# NİZAMİ KİNO MƏRKƏZİNDƏ ANIM MƏRASİMİ

Oktyabrın 19-da Nizami Kino Mərkəzində İkinci Qarabağ müharibəsində şəhid olmuş Xəzər Universitetinin magistr MBA tələbəsi Cavid Mikayıl oğlu Həsənova həsr olunmuş "Yuxumdakı şəhid" adlı tədbir və eyni adlı filmin təqdimatı keçirildi.

Anım mərasimində şəhid anaları, hökümət nümayəndələri, universitet rektorları, iş adamları, Qeyri-hökümət təşkilatlarının nümayəndələri, media mənsubları və digər şəxslər iştirak etdilər.

Tədbirdə Xəzər Universitetinin rektoru İradə Xəlilova çıxış etdi. O, tədbir üçün Xəzər Universiteti adından gül səbəti təqdim etdi.

Sonda təşkilatçılar tərəfindən dəstəyə görə rektor İradə Xəlilovaya təşəkkür plaketi təqdim olundu.

Anım mərasimində İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Təbiət Elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekan müavinləri Bahar İmanova, Xanım Öməroğlu və dugərləri iştirak etdilər.




# COMMEMORATION CEREMONY AT NIZAMI CINEMA CENTER

On October 19, 2023, the Nizami Cinema Center hosted an event titled "The Martyr in My Dream" and a presentation of the film of the same name, dedicated to Javid Mikayil Hasanov, a graduate MBA student at Khazar University who was martyred in the second Karabakh War.

Martyrs' mothers, government representatives, university rectors, businessmen, representatives of non-governmental organizations, media members and other persons took part in the commemoration ceremony. Rector of Khazar University Irada Khalilova spoke at the event.

She presented a flower basket on behalf of Khazar University for the event. In the end, the organizers presented a plaque of gratitude to rector Irada Khalilova for her support.

Director of Public Relations and Media Alovsat Amirbeyli, dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, deputy deans of the School of Economics and Management Bahar Imanova, Khanim Omaroglu and others attended the commemoration ceremony.



# NOBEL MÜKAFATI LAUREATLARI - 2023



## FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ



*Drew Weissman* *Katalin Kariko*

Fiziologiya və tibb üzrə Nobel mükafatına macar alimi Katalin Kariko və amerikalı Dryu Vaysman layiq görülüblər. Onlar "COVİD-19-a qarşı effektiv mRNT vaksinlərinin hazırlanmasına imkan verən nuklein turşusu əsaslarının modifikasiyası sahəsində kəşflərinə görə" mükafatlandırılıblar.

Katalin Kariko (*Katalin Kariko*)1955-ci il yanvarın 17-də Macarıstanın Szolnok şəhərində anadan olub. Bakalavr və fəlsəfə doktoru dərəcəsini Macarıstanın Szeged Universitetində alıb.1985-ci ildə Katalin Kariko`nun işlədiyi Macarıstan Bioloji Tədqiqat Mərkəzinin Biokimya İnstitutunun laboratoriyası bağlanıb və o, ailəsi ilə birlikdə ABŞ-a köçüb, Pensilvaniya Universitetində çalışır.1990-cı ildə mRNT əsaslı gen terapiyasının yaradılmasını təklif edib. Tezliklə Dryu Vaysman ilə tanış olub və onlar adıçəkilən sahədə birgə araşdırma aparmağa başlayıblar. 2019-cu ildən müxtəlif xəstəliklərin müalicəsi üçün yeni növ immunoterapiyalar hazırlayan "BioNTech RNA Pharmaceuticals" şirkətinin baş vitse-prezidentidir.

Dryu Vaysman (*Drew Weissman*) 1959-cu il sentyabrın 7-də ABŞ-ın Massaçusets ştatının Leksinqton şəhərində anadan olub. 1981-ci ildə Brandeis Universitetində bakalavr və magistr dərəcələrini və həmin universitetdə biokimya və enzimologiya ixtisası üzrə təhsil alıb.

Dryu Vaysman Peyvənd Araşdırmaları üzrə Roberts ailəsinin ilk professoru, Penn RNT İnnovasiyası İnstitutunun direktoru və Pensilvaniya Universitetinin Perelman Tibb Məktəbində tibb professorudur.

## FİZİKA ÜZRƏ

Fizika üzrə Nobel mükafatına "maddədə elektron dinamikasının tədqiqi üçün attosaniyəlik işıq impulsları yaradan eksperimental üsullara görə" ABŞ-ın Ohayo Dövlət Universitetinin professoru Pyer Aqostini, Almaniyanın Maks Plank Kvant Optika və Münhen Lüdviq-Maksimilian Universitetindən Ferents Krauz, eləcə də İsveçin Lund Universitetindən fransız Ann Lyülen layiq görülüb.

Pyer Aqostini (*Pierre Agostini*) 1941-ci il iyulun 23-də Tunisdə anadan olub. 1961-ci ildə Eks-Marsel

Universitetini fizika müəllimi kimi başa vurub. 1968-ci ildə Fransanın Eks-Marsel Universitetində fəlsəfə doktoru elmi dərəcəsi alıb və Paris-Sakle Elmi Mərkəzində tədqiqatçı kimi fəaliyyətə başlayıb. 2005-ci ildə alim Ohayo Universitetinin fizika professoru seçilib.

2018-ci ildən Ohayo Dövlət Universitetinin professorudur.





*Pierre Agostini* *Anne L'Huillier'e* *Ferents Kraus*

Ferents Krauz (*Ferents Kraus*)1962-ci ildə Macarıstanın Mor şəhərində doğulub.1991-ci ildə Vyana Texnologiya Universitetində kvant elektronikası üzrə doktorluq dərəcəsi alıb. 1999-cu ildən Vyana Texnologiya Universitetinin professoru, 2000-ci ildə isə Qabaqcıl İşıq Mənbələri Mərkəzinin direktoru olub. 2003-cü ildə Ferens Krauz Maks Plank Kvant Optik İnstitutunda direktor kimi çalışıb. 2004-cü ildən isə o, Münhen Lüdviq Maksimilian Universitetində (LMU) eksperimental fizika kafedrasında işləyir.

Ann Lyülen (*Anne L'Huillier'e*) fransız-isveç fizikidir. O, 1958-ci ildə Parisdə anadan olub. Çoxfotonlu ionlaşma mövzusunda elmi işini 1986-cı ildə Pyer və Mariya Kürü Universitetində və Atom Enerjisi Komissarlığında (CEA) müdafiə edib. 1995-ci ildə o, Lund Universitetinin dosenti, daha sonra professoru təyin olunub. 2004-cü ildən İsveç Kral Elmlər Akademiyasının üzvüdür. Ann Lyülen lazer işığının qazdakı atomlarla qarşılıqlı əlaqəsinin yeni effektini aşkar edib.

## KİMYA ÜZRƏ

Kimya üzrə Nobel mükafatı Massaçusets Texnologiya İnstitutundan (ABŞ) Munqi Bavendi, Kolumbiya Universitetindən (ABŞ) Luis Bryus və rusiyalı alim Aleksey Yekimova "kvant nöqtələrinin kəşfi və sintezi"nə" görə verilib.

Minqi Bavendi (*Moungi Bawendi*) 1961-ci il martın 15-də Parisdə anadan olub. O, fransız və Tunis mənşəli amerikalı kimyaçıdır.1982-ci ildə Harvard Universitetini bakalavr dərəcəsi ilə bitirib.1988-ci ildə Çikaqo Universitetində kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 2020-ci illərin əvvəllərindən Massaçusets Texnologiya İnstitutunda professor vəzifəsində çalışır. Minqi Bavendi koloidal kvant nöqtəsi tədqiqatında dünyada aparıcı mütəxəssislərdən və son on ildə ən çox istinad edilən kimyaçılardan biridir.

Luis Bryus (*Louis Brus*) 1943-cü il avqustun 10-da Klivlenddə (ABŞ) dünyaya gəlib. Fiziki kimya üzrə

(*Ardı səh.72-də*)

mütəxəssisdr.1969-cu ildə  Kolumbiya Universitetində doktorluq dərəcəsi alıb. 1973-1996-cı illərdə Bellin Laboratoriyasında çalışıb. 1996-cı ildən Kolumbiya Universitetinin professorudur. Luis Bryus kvant nöqtələri kimi tanınan kolloid yarımkeçirici nanokristalları kəşf edib.

Aleksey Yekimov (*Alexey Ekimov*) 1945-ci il fevralın 28-də keçmiş SSRİ-də doğulub. Sovet və amerikalı alim bərk cisim fizikası və optika sahəsində mütəxəssisdir. O, yüzdən çox elmi əsər yazıb, bir neçə ixtiranın







*Louis Brus* *Moungi Bawendi* *Alexey Ekimov*

müəllifidir, nanokristal yarımkeçirici kvant nöqtələrini kəşf edib. 2006-cı ildə alim Vud mükafatını alıb.1999-cu ildən ABŞ-dakı "Nanocrystals Technology Inc"-in baş elmi işçisidir. 1980-ci illərin əvvəllərində Aleksey Yekimov rəngli şüşədə ölçülü asılı kvant effektləri yaratmağı bacarıb. Bu iş Luis Bryus və Munqi Bavendi tərəfindən davam etdirilib.

## İQTİSADİYYAT ÜZRƏ



*Claudia Goldin*

İqtisadiyyat sahəsində Nobel mükafatına "Əmək bazarında qadınların rolu barədə anlayışlarımızı yaxşılaşdırdığına görə" Harvard Universitetinin professoru Klaudiya Qoldin layiq gğrülüb.

Klaudiya Qoldin (*Claudia Goldin*) 1946-cı il mayın 14-də Nyu-Yorkda anadan olub. Harvard Universitetinin professoru və bu ali məktəbin nəzdində İqtisadiyyat Gender Tədqiqat Qrupunun (NBER) direktorudur. 2013-2014-cü tədris ilində alim Amerika İqtisadi Birliyinin prezidenti olub. Tədqiqatları qadın işçi qüvvəsi, gender gəlir fərqi, gəlir bərabərsizliyi, texnoloji dəyişiklik, təhsil və immiqrasiya da daxil olmaqla geniş mövzuları əhatə edir.

Nobel Komitəsinin məlumatında qeyd olunur ki, "Klaudiya Qoldin bu il qadınların gəlirləri və əsrlər boyu əmək bazarında iştirakı ilə bağlı ilk hərtərəfli

hesabatı təqdim edib. Evlilik və ailə məsuliyyəti səbəbindən qadınların seçimlərinin tez-tez məhdud olması onun təhlilinin və izahlı modellərinin əsasını təşkil edir.

## ƏDƏBİYYAT ÜZRƏ

Con Fosse (*Jon Fosse*) Norveç dramaturqudur. O, ədəbiyyat sahəsində qazandığı nailiyyətlərə görə Nobel mükafatına sahib olub. Qərarın əsaslandırıcı hissəsində xüsusilə vurğulanır ki, yazıçı "anlaşılmaz olanı ifadə etməyə imkan verən yenilikçi pyesləri və nəsrinə görə" bu mükafata layiq görülüb.

Con Fosse 1959-cu il sentyabrın 29-da Norveçdə doğulub. O, Bergen Universitetini bitirib.

Yazıçının Norveç dilində yazılmış əsərləri müxtəlif janrları əhatə edən bir çox pyes, roman, şeir toplusu, oçerklər, uşaq kitabları və tərcümələrdən ibarətdir. Bu gün dünyanın ən populyar dramaturqlarından biri olsa da, nəsri də getdikcə daha çox tanınır.



*Jon Fosse*

## SÜLH MÜKAFATI



*Narges Mohammadi*

Nərgiz Məhəmmədi (*Narges Mohammadi*) 2023-cü ildə həm Olof Palme mükafatını, həm də Nobel Sülh Mükafatını alıb. 2022-ci ildə də ona “Sərhədsiz reportyorlar” Təşkilatının “Cəsarət Mükafatı” verilmişdi. Nərgiz Məhəmmədi İnsan Haqlarının Müdafiəçiləri Mərkəzinin (İHM) vitse-prezidentidir.

1972-ci il aprelin 21-də İranda doğulan Nərgiz Məhəmmədi hüquq müdafiəçisi və alimdir. O, öz ölkəsində hicaba itaətsizlik etməklə kütləvi feminist vətəndaş itaətsizliyinin tərəfdarıdır və 2023-cü ilin hicab və iffət proqramının kəskin tənqidçisidir. 2016-cı ilin mayında Tehranda "ölüm cəzasının ləğvi üçün kampaniya aparan insan haqları hərəkatı" yaratdığına və idarə etdiyinə görə o, 16 il həbs cəzasına məhkum edilib. 2020-ci ildə azad edilsə də, 2021-ci ildə yenidən həbs olunub.

Qeyd edək ki, Sülh Mükafatı dünyada sülh və əmin-amanlıq uğrunda əmək sərf etmiş, mübarizə aparmış şəxslərə və təşkilatlara verilir.

# "FİLM ANALİZİ" GÜNÜ

Oktyabrın 21-də Xəzər Universitetinin Psixologiya departamenti və psixologiya ixtisası tələbələri tərəfindən təsis edilmiş "PsychoClub"-un birgə əməkdaşlığı ilə "Film analizi" günü keçirildi. Tədbirin təşkilində əsas məqsəd tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi, filmləri psixoloji cəhətdən təhlil edərək bu sahədəki biliklərinin artırılması, eləcə də, onların bir-biri ilə sosiallaşmasına şərait yaratmaq idi.

Tədbirdə Psixologiya departamentinin koordinatoru Mələk Kərimova belə tədbirlərin əhəmiyyətini vurğuladıqdan sonra film izlənildi. Analiz üçün "Toc-Toc" filmi seçilmişdi. Filmin mövzusu Obsessiv-Kompulsiv Pozuntudan əziyyət çəkən insanların yaşadıqları çətinliklər və bu problemlərin öhdəsindən gəlmə üsulları idi. Sonra tələbələrin aktiv iştirakı ilə film təhlil edildi və Xəzər Universitetinin Psixologiya departamentinin assistenti Mirsadiq Muxtarov tərəfindən ümumiləşdirildi. O, filmin mövzusuna istinad edərək, Obsessiv-Kompulsiv Pozuntunun nə olduğu və hansı terapiya növləri ilə yanaşılacağını izah etdi. Tədbir tələbələrin böyük marağına səbəb oldu. Departament tərəfindən bu tip silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# "FILM ANALYSIS" DAY

On October 21st, the "Film analysis" day was held in collaboration with "PsychoClub", which was established by the Department of Psychology and students majoring in psychology at Khazar University. The main objective of the event was to create conditions for students to spend their leisure time effectively , to increase their knowledge in this area by analyzing films psychologically, as well as to socialize with each other.

Following an emphasis on the importance of such events by Malak Karimova, coordinator of the Department of Psychology, the film was viewed. The film "Toc-Toc" was selected for analysis. The theme of the film was the difficulties faced by people suffering from Obsessive-Compulsive Disorder and the ways to cope wirh these problems. Then, with the active participation of students, the film was analyzed and summarized by Mirsadiq Mukhtarov, assistant of the Department of Psychology at Khazar University. Referring to the film's theme, he explained what Obsessive-Compulsive Disorder is and what types of therapy are available. The event aroused great interest of students. It is planned to hold a series of events of this type by the department.

# TƏLƏBƏLƏR ÜÇÜN MƏLUMATLANDIRICI TƏDBİR

Oktyabrın 23-də Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli və İnformasiya xidmətləri bölməsinin müdiri Samirə Orucova Xəzər Universitetinin Bakıxanov korpusunda Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələrinə "Kitabxana İnformasiya Mərkəzinin qaydaları və elektron resurslarından necə istifadə etməli? " mövzusunda geniş məlumat verdilər.

# INFORMATIVE EVENT FOR STUDENTS

On October 23, Aytac Misgarli, deputy director of the Library Information Center (LIC), and Samira Orujova, head of the Information Services Section, gave detailed information on "Rules of the Library Information Center and ways to use its electronic resources " to first-year students of the School of Science and Engineering in the Bakikhanov campus of Khazar University.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ İCTİMAİ RADİODA

## LANGUAGES AND LITERATURES DEPARTMENT LECTURERS AT PUBLIC RADIO

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, fil.ü.f.d. Sevinc Qəmbərova, 2023-cü il sentyabrın 28-də İctimai Radioda Pərvanə Nadirqızının təqdimatı ilə yayımlanan "Can, Azərbaycan" verilişinin qonağı olmuşdur. Verilişdə Azərbaycan dilinin şivələri ilə əlaqədar dialektologiyanın əsas anlayışlarından, Azərbaycan dilinin qohum dillərlə müqayisəli təhlilindən bəhs edilmişdir.

Sevinj Gambarova, a lecturer of the Department of Languages and Literatures of Khazar University, doctor of philosophy in philology, was a guest of the program "Can, Azerbaijan" broadcast on Public Radio on September 28, 2023, presented by Parvana Nadirgizi. In the program, the main concepts of dialectology related to the accents of the Azerbaijani language, comparative analysis of the Azerbaijani language with related languages were discussed.

*https://cloud.mail.ru/stock/h84iowQ5TJFLz6pwGnSSTHnp*

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ İCTİMAİ TELEVİZİYANIN "ÖTƏN GÜNLƏR" VERİLİŞİNDƏ

## LANGUAGES AND LITERATURES DEPARTMENT LECTURER IN THE PROGRAM "PAST DAYS" OF PUBLIC TELEVISION

2023-cü il oktyabrın 14-də İctimai televiziyanın Xalq şairi Məmməd Arazın 90 illiyi ilə bağlı yayımlanan "Ötən günlər" verilişində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, "Məmməd Araz poeziya günü" layihəsinə rəhbərlik edən fil.ü.f.d. Qardaşxan Əzizxanlı da çıxış etmişdir.

On October 14, 2023, in the program " Past Days" broadcast on the Public Television on the occasion of the 90th anniversary of the People's Poet Mammad Araz, the lecturer of the Department of Languages and Literatures of Khazar University, PhD in philology, who heads the "Mammad Araz Poetry Day" project, made a speech. .

*https://youtu.be/sI4SJV63Zqk?si=1R1iHUHyTwLEPaws*

## "XƏZƏR"İN ƏMƏKDAŞI "GÜN BAŞLADI" VERİLİŞİNDƏ

## KHAZAR UNIVERSITY STAFF MEMBER IN THE "THE DAY HAS STARTED" PROGRAM

2023-cü il oktyabrın 20-də Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova *AZTV* kanalında Xədicə Sənanqızı və Elnur Kərimovun təqdimatında yayımlanan "Gün başladı" verilişinin qonağı olub.

Verilişdə "Qadın və kişi münasibətlərinin gender aspektinə əsasən təhlili" mövzusunda geniş müzakirələr aparılıb. Xüsusilə qadınların cəmiyyətdə son ildə artan sosial rolları, həmçinin ailə məsuliyyətləri üzərində dayanılıb. Gender rolları və steriotiplərin kişi və qadın münasibətlərinin dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərə bildiyi müzakirə olunub. Bütün bunlarla yanaşı, qadınların psixi və zehni sağlamlıqlarının qorunması üçün sosial rollarının balanslaşdırılmasının əhəmiyyəti vurğulanıb.

On October 20, 2023, Malak Karimova, the coordinator of Khazar University's Psychology Department, was a guest of the "The Day Has Started" program, presented by Khadija Sanangizi and Elnur Karimov, on AZTV.

The program covered discussions on "Analysis of male and female relations based on gender aspect". In particular, the focus has been on the increasing social roles of women in society in recent years, as well as family responsibilities. It has been discussed whether gender roles and steriotypes can significantly affect the dynamics of male and female relationships. Along with all this, the importance of balancing the social roles of women for the protection of their mental health was emphasized.

# SOCAR VƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ SAZİŞİ İMZALANIB

# SOCAR AND KHAZAR UNIVERSITY SIGN COOPERATION AGREEMENT




*İradə Xəlilova* *Arzu Cavadova*

Oktyabrın 23-də tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Xəzər Universiteti arasında Əməkdaşlıq Sazişi imzalanıb.

SOCAR-ın Baş ofisində təşkil olunan imzalanma mərasimindən öncə qonaqlar Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi və Azərbaycan Nefti sərgisi ilə tanış olublar.

Tədbirdə SOCAR-ın vitse-prezidenti Arzu Cavadova çıxış edərək, qonaqları salamlayıb və Sazişin önəmini qeyd edib. Sənədin gələcək mühəndislərin hazırlanmasına, tələbələrin neft-qaz sənayesinə marağının artmasına verəcəyi töhfələrdən bəhs edən vitse-prezident əməkdaşlığın uğurlu olacağına əminliyini ifadə edib.

Xəzər Universitetinin rektoru İradə Xəlilova tədbirin təşkilinə görə SOCAR-ın rəhbərliyinə təşəkkürünü bildirib, ölkəmizin neft sənayesinin əldə etdiyi tarixi nailiyyətləri vurğulayıb. Universitetin əsas strateji yol xəritələrindən birinin təhsil və sənaye arasında sıx əlaqələrin yaradılması olduğunu söyləyən rektor bu gün SOCAR ilə əməkdaşlığın qurulması ilə bu istiqamətdə önəmli addımın atıldığını diqqətə çatdırıb.

On October 23, the State Oil Company of Azerbaijan Republic (SOCAR) and Khazar University formalized their partnership by signing a Cooperation Agreement. The signing event took place at SOCAR's Head Office, where attendees had the opportunity to view exhibitions commemorating the centennial of the National Leader Heydar Aliyev and the achievements of the Azerbaijani oil industry.

Arzu Javadova, Vice President of SOCAR, welcomed attendees and underscored the importance of the newly signed agreement. She voiced her confidence in the potential of this partnership to enhance engineering education and pique student interest in the oil and gas sector.

Irada Khalilova, Rector of Khazar University, expressed her appreciation to SOCAR's administration for hosting the event. She spoke of the nation's rich oil industry heritage and reiterated the university's commitment to fostering stronger ties between academia and industry. Khalilova further highlighted the pivotal steps being taken towards deepening collaboration with SOCAR.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI "AKADEMİK LİDERLİK ROLU ÜÇÜN QADINLARIN PEŞƏKAR BACARIQLARININ GÜCLƏNDİRİLMƏSİ" ÜZRƏ MİLLİ SEMİNARDA

## KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE NATIONAL SEMINAR ON "STRENGTHENING THE PROFESSIONAL SKILLS OF WOMEN FOR THE ROLE OF ACADEMIC LEADERSHIP "

Oktyabrın 18-20-də ADA universitetində UNESCO Milli İştirak Proqramı çərçivəsində "Akademik liderlik rolu üçün qadınların peşəkar bacarıqlarının gücləndirilməsi" üzrə milli seminarın ikinci hissəsi keçirilib.

3 günlük seminarda Xəzər Universitetini Beynəlxalq Əlaqələr şöbəsinin koordinatoru Arzu Bədəlova və rektorun köməkçisi Humay Hüseynova təmsil ediblər.

Seminarın məqsədi qadınların ali təhsil müəssisələrində və ümumi elmi cəmiyyətdə rəhbər vəzifələrdə kifayət qədər təmsil olunmaması ilə bağlı hazırkı vəziyyəti araşdırmaq, idarəetmədəki qadınların liderliyinə mane olan amilləri müəyyən etmək və müzakirələr aparmaqdır.

Seminarda BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin ofisində Əlaqələndirmə üzrə müşavir Şəms Mustafayeva, ADA Universitetinin Media və kommunikasiya proqramının direktoru Şəfəq Mehralıyeva və digər təlimçilər praktiki məşğələlər və seminarlar vasitəsilə liderlik və peşəkar inkişaf vərdişlərinin artırılması, rəhbərlikdə gender bərabərliyinin təşviqi mövzularında çıxış etmişlər.

Tədbir müzakirə və sertifikat təqdimatı ilə başa çatmışdır.

On October 18-20, the second part of the national seminar on "Strengthening the professional skills of women for the role of academic leadership" was held at ADA University under the auspices of the UNESCO National Participation Program.

In the 3-day seminar, Khazar University was represented by Arzu Badalova, coordinator of the International Relations Department, and Humay Huseynova, assistant to the rector.

The seminar's objective is to scrutinize the current situation concerning the insufficient representation of women in leadership positions within higher education institutions and the general scientific community, to identify and deliberate on the factors impeding women's leadership in management.

At the seminar, Shams Mustafayeva, the liaison advisor at the UN resident coordinator's office in Azerbaijan, Shafaq Mehraliyeva, the director of the media and communication program of ADA University, and other trainers lectured on the topics of increasing leadership and professional development skills and advocating for gender equality in leadership through practical exercises and seminars.

The event concluded with a discussion and certificate presentation.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ ZƏNGƏZURA HƏSR OLUNMUŞ KONFRANSLARDA

Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu oktyabrın 23-də Mərmərə Universiteti Türkiyyat Araşdırmaları İnstitutunun keçirdiyi Zəngəzur konfransında Zəngəzurun tarixi, siyasi-strateji önəmi ilə bağlı geniş məruzə etmişdir.

Departament müdiri yenə İstanbulda oktyabrın 24-də Azərbaycan Baş Konsulluğu, Altınbaş Universiteti və Qərbi Azərbaycan İcmasının birlikdə təşkil etdikləri Qərbi Azərbaycan konfransında "Türkmənçaydan Sovetlərə: İrəvan və Zəngəzur torpaqlarında həyata keçirilən etnik təmizləmə " mövzusunda çıxış etmiş, konfrans iştirakçılarının suallarını cavablandırmışdır.

## HEAD OF THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY AT CONFERENCES DEDICATED TO ZANGAZUR

On October 23, the head of the History and Archeology Department, Telman Nusratoghlu, delivered an extensive report on the historical, political and strategic significance of Zangazur at the Zangazur conference hosted by the Institute of Turkic Studies of Marmara University.

On October 24, the head of the department addressed the Western Azerbaijan conference jointly organized by the Consulate General of Azerbaijan, Altinbash University and the West Azerbaijan Community in Istanbul on "From Turkmenchai to the Soviets: ethnic cleansing carried out in the lands of Iravan and Zangazur", followed by Q&A session with the conference attendees.

# YAPONİYADA 40 MİN NƏFƏRLİK ÜZƏN ŞƏHƏR TİKİLƏCƏK



Yaponiyanın "N-Ark" şirkəti 40 min nəfərlik Doqen üzən şəhərin layihəsini təqdim edib. Onların 10 mini daimi sakinlər, qalanları turistlər olacaq. Şəhərə dünya okeanı səviyyəsinin qalxması təhlükə törətməyəcək, çünki bütün infrastruktur tamamilə avtonom şəkildə və enerji istehsalından sakinlərin qida və su ilə təminatınadək bütün həyati məsələlər nəzərə alınmaqla layihələşdirilib. Şəhərin dairəvi forması ətraf dənizin ən güclü dalğalarına tab gətirmək iqtidarındadır.

Şəhərdə çoxsaylı yaşıllıqlar, məhsul yetişdirilməsi üzrə plantasiyalar, məktəblər, idman meydançaları, xəstəxanalar, parklar, stadionlar, mehmanxanalar və ofislər nəzərdə tutulub.Bundan başqa, "N-Ark" şirkəti şəhərin perimetrindən kənarda raketlər üçün uçuş və enmə meydançalarının yerləşdirilməsini mümkün hesab edir.

Güman edilir ki, ada şəhərə il ərzində təxminən 2 milyon litr içməli su tələb olunacaq, bu da o qədər də böyük rəqəm deyil.Bu zaman il ərzində 3288 ton tullantılar istehsal olunacaq, onların harasa daşınması və ya utilizasiya edilməsi məsələsi hələlik tam işlənməyib. Doqen şəhərinin özəl gücləri təxminən 7 min ton ərzaq və 22, 2 qiqavat elektrik enerjisini istehsal etməyə imkan verəcək.

Enerji istehsalı kompleks olacaq, buraya bütün damlarda Günəş panelləri, külək dəyirmanları və sualtı axınlarından istifadə edən turbinlər daxil olacaq.

Tikintinin qiyməti hələlik hesablanmayıb."N-Ark" şirkəti əmin edib ki, əgər bu layihə investorları maraqlandırsa, Doqen şəhəri 2030-cu ildə artıq gerçəyə çevriləcək.

*https://moderator.az/az/ekskluziv/648388/yaponiyada-40-min-neferlik-uzen-seher-tikilecek/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

1

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 3 QRUP

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi